17 fevral 2023 №13 (1982) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Rəssamlıq Akademiyasına yeni rektor təyin edilib

Prezident İlham Əliyev fevralın 15-də Ömər Həsən oğlu Eldarovun Azərbaycan Rəssamlıq Akademiyasının rektoru vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.

Dövlət başçısının digər sərəncamı ilə Natiq Kamal oğlu Əliyev Azərbaycan Rəssamlıq Akademiyasının rektoru təyin edilib.

səh. 2

## Mikayıl Hüseynov və Sadıq Dadaşovun birgə abidəsi ilə bağlı müsabiqə



Mədəniyyət Nazirliyi görkəmli Azərbaycan memarları Mikayıl Hüseynovun və Sadıq Dadaşovun xatirələrinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində ucaldılacaq abidənin eskiz layihələrinin hazırlanması üçün heykəltəraşlar arasında açıq müsabiqə elan edib. Müsabiqə 17 fevral – 17 aprel 2023-cü il tarixlərində keçiriləcək.

Müsabiqə Mikayıl Hüseynovun və Sadıq Dadaşovun birgə abidəsinin ucaldılması haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 8 oktyabr 2022-ci il tarixində imzaladığı sərəncamın icrasını təmin etmək məqsədilə keçirilir.

səh. 2

## Əsrin fəlakətinin acı tablosu böyüyür

Türkiyədə əsrin fəlakəti sayılan 6 fevral zəlzələləri nəticəsində həlak olanların sayı 36 min 187 nəfərə çatıb. Bu barədə fevralın 16-da AFAD məlumat yayıb.

Zəlzələdən yaralı olaraq qurtulanların sayı 108 mindən çoxdur. 216 min nəfər fəlakət zonasından digər bölgələrə təxliyə edilib.

Fəlakətin 11-ci günündə, zəlzələdən 248 saat sonra Kahramanmaraşda 17 yaşlı qız, 258 saat sonra isə 42 yaşlı qadın dağıntılar altından xilas edilib. Gün ərzində dağıntılar altından 4 minə yaxın cəsəd çıxarılıb. Artıq fəlakət bölgəsində ağır texnikalar dağıntıları təmizləməklə məşğuldur. Qeyd edək ki, zəlzələnin vurduğu 11 vilayətdə ümumilikdə 6500-ə yaxın bina dağılıb.

Zəlzələ zonasında qəzalı hala düşdüyü təsbit edilən ümumilikdə 61 mindən çox bina sökülməlidir. Yaşayışa yararsız binaların sayının artacağı istisna deyil. Vilayətlərdə binalarla bağlı baxışyoxlama işləri davam edir.

## Qətər ölkəmizlə mədəni əlaqələrin inkişafında maraqlıdır

Azərbaycanın Qətərdəki yeni səfiri Mahir Əliyev bu ölkənin mədəniyyət naziri Şeyx Əbdül Rəhman bin Həməd Al Tani ilə görüşüb.

Səfirlikdən bildiriblər ki, görüşdə iki ölkə arasında mədəniyyət sahəsində mövcud əlaqələrin inkişaf istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.

Söhbət zamanı 2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan olunduğu nəzərə alınaraq bu çərçivədə Qətərdə bir sıra mədəni tədbirlərin keçirilməsi, o cümlədən Azərbaycan mədəniyyəti günlərinin təşkil olunması məsələləri də müzakirə edilib.

səh. 2

## Nigar Nərimanbəyovanın əsəri Parisdə maraqla qarşılanıb



Fransa paytaxtındakı "Grand Palais Ephmere" sərgi salonunda "Art en Capital – 2023" sərgisi açılıb. Ənənəvi sərgidə Azərbaycan rəssamı Nigar Nərimanbəyovanın da əsərləri nümayiş olunur.

Tanınmış rəssamların əsərlərinin nümayiş olunduğu "Art en Capital – 2023"də Nigar Nərimanbəyovanın "Votsap" tablosu da maraqla qarşılanıb.

səh. 8

# Türkiyə bir gecədə tək ürək oldu

### Telekanalların ortaq yayımında 115 milyard lirə yardım toplanıb




Türkiyədə baş vermiş zəlzələdən zərər çəkənlərə yardım üçün ölkənin aparıcı telekanallarının ortaq yayımla təşkil etdiyi ianə kampaniyasında rekord miqdarda – 115 milyard lirədən çox vəsait toplanıb.

Fevralın 15-də Türkiyənin səkkiz televiziya kanalının (ATV, FOX, Kanal D, Kanal 7, Show TV, Star TV, TRT 1, TV8) "Türkiyə tək ürək" adlı ortaq yayımı yerli vaxtla saat 20:00-da başlayıb və 8 saata yaxın davam edib. "Türkiyə – tək ürək" Türkiyənin digər bir çox kanallarında, həmçinin Azərbaycan və Şimali Kipr telekanallarında canlı yayımlanıb.

"Türkiyə – tək ürək" kampaniyasının yayımlandığı studiyaya ianə ilə bağlı edilən telefon zənglərini operator qismində ölkənin incəsənət, biznes və idman aləminin məşhur simaları qeydə alıblar. Səkkiz saat müddətində onlarla məşhur studiyada bir-birilərini əvəzləyərək kampaniyaya dəstək olublar.

Canlı yayımda açılışı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan edib. Kahramanmaraş, Hatay, Adıyaman, Qaziantep, Adana, Osmaniye, Malatya, Diyarbakır, Şanlıurfa, Kilis və Elazığ vilayətlərində zəlzələdən zərərçəkənlər üçün Türkiyənin tək ürək olduğu yardım kampaniyasına ölkənin tanınmış iş adamları, dövlət rəsmiləri və milyonlarla vətəndaş qoşulub.

Ən böyük ianəni Türkiyə Cümhuriyyəti Mərkəzi Bankı (30 milyard lirə), Ziraat Bankı (20 milyard lirə), Vakıfbank (12 milyard lirə) və Halkbank (7 milyard lirə) edib. Onlarla şirkət tərəfindən 5, 10, 50, 100 və 200 milyon lirə ianələr edilib. Azərbaycan Dövlət Neft Şirkətinin Türkiyədakı törəmə şirkəti – SOCAR-Türkiyə də 3,5 milyon lirə ianə edib. Bundan əlavə, şirkətin yanacaqdoldurma məntəqələrində zəlzələ zonasında çalışan texnika üçün fəlakətin ilk günündən təmənnasız yanacaq verildiyi bildirilib. Canlı yayıma bir sıra ölkələrdən qatılan insanlar da ianələr ediblər.

Kampaniyanın sonunda toplam 115 milyard 146 milyon 528 min lirə (təxminən 6 milyard 108 milyon dollar) ianə edildiyi bildirilib. Bundan əlavə, canlı yayım müddətində 9 milyon 10 min ianə SMS-i (1 SMS 50 lirə) göndərilib ki, bu da 450,5 milyon lirə deməkdir.

Qeyd edək ki, yığılan vəsait Türkiyənin Təbii Fəlakət və Fövqəladə Halların İdarə Olunması Agentliyi – AFAD-ın və "Türk Qızıl Ay" cəmiyyətinin hesabına köçürüləcək.

## Azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası Azərbaycanın inkişafına təkan verəcək

Azərbaycan hər zaman ehtiyac içərisində olan ölkələrlə həmrəy olub, onlara yardım göstərib. Xüsusilə ötən dövr ərzində COVID-lə bağlı 80-dən çox ölkəyə göstərdiyimiz dəstək bizim beynəlxalq arenada həmrəyliyin möhkəmləndirilməsinə töhfəmizdir.

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov bunu fevralın 15-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən Dünya Hökumət Sammitində çıxışı zamanı vurğulayıb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Baş nazir çıxışında Türkiyənin cənub-şərqində baş vermiş dəhşətli zəlzələ ilə bağlı bir daha Azərbaycanın həmrəyliyini ifadə edib.

Azərbaycanın 2020-ci ildə 44 günlük Vətən müharibəsində otuz ilə yaxın işğal altında qalan əzəli torpaqlarını azad etdiyini diqqətə çatdıran Əli Əsədov bildirib ki, ölkəmiz beynəlxalq hüquqa, onun norma və prinsiplərinə hər zaman hörmət və məsuliyyətlə yanaşır və bu gün regionda sülhün, sabitliyin, əməkdaşlığın və dayanıqlı inkişafın bərqərar edilməsi istiqamətində səylə çalışır.

Azərbaycanın Qoşulmama Hərəkatındakı uğurlu sədrliyi barədə məlumat verən Əli Əsədov üzv dövlətlərin yekdil razılığı ilə bu sədrliyin bir il (2023-cü ilin sonunadək – red.) uzadılmasını ölkənin beynəlxalq arenada oynadığı rola verilən qiymət kimi dəyərləndirib.

davamı səh. 2-də

## Ağdam necə yenidən qurulur?

Fevralın 16-da Ağdam şəhərindəki Konfrans Mərkəzində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin "Şəhərsalma məsələləri üzrə" İşçi qrupunun iclası keçirilib.

Tədbirdə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov, Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdir müavini Nüsrət Süleymanov, Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov, "Azərişıq", "Azərsu" və digər qurumların təmsilçiləri iştirak ediblər.

davamı səh. 4-də



## Azərbaycandan qardaş ölkəyə humanitar yardım davam edir

### Fevralın 15-də və 16-da yardımla dolu daha iki təyyarə göndərilib




Türkiyədə zəlzələdən zərər çəkənlərə dəstək məqsədilə fevralın 15-də Heydər Əliyev Fondu tərəfindən qardaş ölkəyə daha bir təyyarə ilə humanitar yardım göndərilib. Zəlzələ bölgəsinə çadırlar və qızdırıcılar daxil olmaqla ümumilikdə 40 ton yardım yola salınıb.

Fevralın 16-da isə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığı ilə daha bir humanitar yardım daşıyan təyyarə Türkiyəyə yola düşüb. 105 tonluq humanitar yardım qardaş ölkədə zəlzələdən zərər çəkmiş insanların soyuq qış aylarında ən çox ehtiyac duyduqları qızdırıcılar və çadırlardan ibarətdir.

Heydər Əliyev Fondu fəlakətin ilk günündən qardaş ölkəyə dəstək göstərir. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, fevralın 9-da və 11-də Türkiyəyə dərman preparatları, tibbi ləvazimat və avadanlıqlar, isti geyimlər, qızdırıcısı olan çadırlar, generatorlar, istilik radiatorları, çöl üçün qızdırıcılar, dizel yanacaqlı kaloriferlər, digər ləvazimat və avadanlıqlar göndərilib.

Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin dəstəyi ilə vətəndaşlardan toplanan isti geyim və avadanlıqlar da Türkiyəyə yola salınıb.

***

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın xanımı Əminə Ərdoğan zəlzələnin fəsadlarının aradan qaldırılmasında göstərdiyi dəstəyə görə Azərbaycana və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür edib.

Əminə Ərdoğanın rəsmi tviter hesabında bununla bağlı etdiyi paylaşımda deyilir: "Dərdiniz dərdimizdir" deyən azərbaycanlı qardaşlarımızı unutmayacağıq. Axtarış-xilasetmə qrupları başda olmaqla, humanitar yardım təyyarələri ilə ilk gündən bizimlə olan Azərbaycana və dəyərli dostum Mehriban Əliyevaya dəstəyə görə təşəkkürümü bildirirəm".

Türkiyədə zəlzələdən zərər çəkənlərə yardım məqsədilə Azərbaycandan göndərilən modul tipli evlərin müəyyən bir bölgədə toplanması istiqamətində işlər görülür. Konteyner-evlər bir bölgədə toplanacaq və müvəqqəti sığınacaq kimi istifadə ediləcək.

Bu barədə jurnalistlərə açıqlamasında Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı deyib.

Diplomat qeyd edib ki, zəlzələnin baş verdiyi ilk gün Azərbaycanda 24 saat dayanmadan iş görüldü, 15 TIR yardım Türkiyəyə yola salındı. İndi də dəmiryolu vasitəsilə yola salınan humanitar yardım 10 milyonluq Azərbaycan xalqının qardaşlığını göstərir. Türkiyə çətin gündə Azərbaycan xalqının onun yanında olduğunu heç vaxt unutmayacaq.

Şagirdlərin Uşaq Kitabxanasında bir günü



səh. 3

Həştərxanda Ulu öndərin 100 illiyi ilə bağlı tədbirlər keçiriləcək

səh. 3



"Sən elə bir zirvəsən..."

səh. 4

# Prezident Litva və Serbiya rəhbərlərini təbrik edib

Azərbaycan ilə Litva arasında münasibətlər xoş ənənələrə malikdir və biz bu münasibətlərin inkişafına xüsusi əhəmiyyət veririk.



Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin Litva Respublikasının milli bayramı münasibətilə həmkarı Gitanas Nausedaya ünvanladığı təbrik məktubunda yer alıb.

"Keçən ay Sizinlə Davosda keçirdiyimiz görüşü və apardığımız fikir mübadiləsini məmnunluqla xatırlayıram. Hesab edirəm ki, hazırda ölkələrimiz arasında müxtəlif sahələr üzrə münasibətlərin genişlənməsi, əməkdaşlığımızın yeni istiqamətlərinin müəyyənləşdirilməsi üçün yaxşı imkanlar formalaşmışdır", – deyə məktubda bildirilir.

Dövlətimizin başçısı Azərbaycan-Litva münasibətlərinin və qarşılıqlı faydalı əməkdaşlığın həm ikitərəfli əsasda, həm də Avropa İttifaqı çərçivəsində bundan sonra da inkişaf edəcəyinə inamını ifadə edib, dost Litva xalqına əmin-amanlıq və rifah arzulayıb.

***



Azərbaycan ilə Serbiya arasında münasibətlər möhkəm dostluq, qarşılıqlı etimad və anlaşma üzərində qurulub. Sıx dövlətlərarası əlaqələrimiz və gündən-günə yeni məzmunla zənginləşən əməkdaşlığımız böyük məmnunluq doğurur.

Bu sözlər isə Prezident İlham Əliyevin Serbiya Respublikasının milli bayramı münasibətilə həmkarı Aleksandar Vuçiçə ünvanladığı təbrik məktubunda vurğulanır.

Təbrikdə deyilir: "Bu gün siyasi əlaqələrimizin yüksək səviyyəsi, çoxsaylı qarşılıqlı səfərlər, imzalanan sənədlər, həyata keçirilən birgə layihələr münasibətlərimizin genişlənməsində və qarşılıqlı fəaliyyətimizin dərinləşməsində mühüm rol oynayır. İkitərəfli müstəvidə olduğu kimi, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edirlər".

Dövlətimizin başçısı əmin olduğunu bildirib ki, Azərbaycan-Serbiya strateji tərəfdaşlığı, siyasi, iqtisadi-ticari, energetika, nəqliyyat-logistika, müdafiə və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımız birgə səylərimizlə bundan sonra da yüksələn xətlə inkişaf edəcək.

# Rəssamlıq Akademiyasına yeni rektor təyin olunub

Prezident İlham Əliyev fevralın 15-də Ömər Həsən oğlu Eldarovun Azərbaycan Rəssamlıq Akademiyasının rektoru vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.



Dövlət başçısının digər sərəncamı ilə Natiq Kamal oğlu Əliyev Azərbaycan Rəssamlıq Akademiyasının rektoru təyin edilib.

Azərbaycan Rəssamlıq Akademiyası 13 iyul 2000-ci ildə Prezident Heydər Əliyevin sərəncamı ilə yaradılıb. Ali tədris ocağına həmin vaxtdan görkəmli heykəltəraş, Xalq rəssamı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Ömər Eldarov rəhbərlik edib. Qocaman sənətkar 2022-ci ilin 21 dekabrında 95 yaşını qeyd edib.

Xalq rəssamı, tanınmış heykəltəraş Natiq Əliyev bu təyinatadək Azərbaycan Rəssamlıq Akademiyasının professoru, Heykəltəraşlıq kafedrasında emalatxana rəhbəri olub.

Fevralın 16-da Azərbaycan Rəssamlıq Akademiyasının yeni rektoru Natiq Əliyev kollektivə təqdim olunub.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev də iştirak edib. Nazir yeni rektora fəaliyyətində davamlı uğurlar arzulayıb.

# Multikulturalizm xalqlarımızın tarixi-mənəvi dəyərləri sırasındadır

Ölkələrimiz arasında münasibətlər qarşılıqlı hörmətə əsaslanır və siyasi sahədə yaxşı əlaqələr mövcuddur. Azərbaycanla Mərakeş beynəlxalq təşkilatlar çərçivəsində daim yaxından əməkdaşlıq edir, bir-birini dəstəkləyir.

Bu fikirlər fevralın 16-da Milli Məclisin sədri Sahibə Qafarovanın Mərakeş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Adil Embarşla görüşündə qeyd olunub. Vurğulanıb ki, Mərakeş Azərbaycanın beynəlxalq səviyyədə, xüsusilə Qoşulmama Hərəkatı çərçivəsində təşəbbüslərini hər zaman dəstəkləyib.

Görüşdə münasibətlərin genişlənməsində qarşılıqlı səfərlərin rolu diqqətə çatdırılıb. Bildirilib ki, xalqlarımız bir çox ortaq baxışları bölüşürlər. Multikulturalizm, digərlərinə hörmət, islamofobiyanın rədd edilməsi kimi məsələlər xalqlarımızın tarixi-mənəvi dəyərləri sırasındadır.

Sahibə Qafarova Mərakeşin Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin işində fəal iştirakı, o cümlədən bu platformanın Madriddə keçirilən təsis, Bakıda keçirilən birinci konfransında təmsil olunmasını yüksək qiymətləndirib, Parlament Şəbəkəsinin institusional inkişafı, qarşıda duran vəzifələr barədə danışıb. İki ölkə parlamentlərində fəaliyyət göstərən dostluq qruplarının əməkdaşlığı, onların birgə fəaliyyətinin əhəmiyyəti vurğulanıb.

# Azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası Azərbaycanın inkişafına təkan verəcək

## Baş nazir Əli Əsədov Dubayda Dünya Hökumət Sammitində çıxış edib

*əvvəli səh. 1-də*

İclas iştirakçılarına Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin artırılması, əhalinin sosial müdafiəsinin təmin edilməsi istiqamətində görülən işlər barədə də məlumat verilib. Bildirilib ki, görülən tədbirlər nəticəsində ötən il qeyri-neft məhsullarının ixracı 12,3 faiz yüksəlib və dövlət büdcəsinin gəlirlərinin 50 faizi qeyri-neft-qaz gəlirləri hesabına formalaşıb.

Bütün ölkələr üçün ərzaq təhlükəsizliyi məsələsinin kəskin şəkildə aktuallaşması fonunda Azərbaycanda əsas ərzaq məhsulları ilə daxili bazarın təchizatının yaxşılaşdırılması və özünütəminat səviyyəsinin qorunması istiqamətində tədbirlərin görüldüyü qeyd olunub.

Vurğulanıb ki, Azərbaycanın dövlət siyasətinin mühüm tərkib hissələrindən biri də əhalinin sosial məsələlərinin həlli, onların dövlət orqanlarının xidmətlərinə əlçatanlığının təmin edilməsi və vətəndaş məmnunluğunun daha da artırılmasıdır. Bu baxımdan Azərbaycan Prezidentinin təşəbbüsü ilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ("ASAN Xidmət") və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST) yaradılması dövlət və sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələ açan və şəffaflıq, operativlik, vətəndaş




məmnunluğunu təmin edən addımdır.

Azərbaycanın bir sıra regional və beynəlxalq nəqliyyat layihələrinin təşəbbüskarı və əsas iştirakçısı olduğu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici rola malik olduğu qeyd edilib.

Baş nazir Azərbaycanın kosmik sənaye və müasir texnologiyalar sahələrində əldə etdiyi uğurlardan da bəhs edib, 2023-cü ilin oktyabr ayında Bakıda 74-cü Beynəlxalq Astronavtika Konqresinin keçiriləcəyini bildirib.

Azərbaycanın, eyni zamanda bir sıra vacib enerji layihələrinin təşəbbüskarı və iştirakçısı qismində çıxış etdiyi, Cənub Qaz Dəhlizi layihəsinin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün əhəmiyyəti vurğulanıb. Ötən ilin dekabr ayında Buxarestdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanan yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında sazişin əhəmiyyəti diqqətə çatdırılıb.

Azərbaycan Prezidenti tərəfindən "Azərbaycan – 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edildiyini deyən Əli Əsədov bildirib ki, Azərbaycan işğaldan azad edilmiş ərazilərinin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin, xüsusilə də region üçün böyük əhəmiyyətə malik Zəngəzur dəhlizinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək.

# "ASAN Xidmət" beynəlxalq mükafata layiq görülüb

Azərbaycanın beynəlxalq miqyasda tanınan brendi "ASAN Xidmət" (Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi) Dubayda keçirilən 10-cu Dünya Hökumət Sammitində "Qlobal Hökumət Mükəmməlliyi Mükafatı" Proqramı çərçivəsində "Dünyanın ən qabaqcıl dövlət xidməti" seçilib və xüsusi mükafata layiq görülüb.

Mükafat Dubay Əmirliyinin vəliəhd şahzadəsi Şeyx Həmdan bin Məhəmməd bin Rəşid Əl Maktum tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevə təqdim olunub.

"Qlobal Hökumət Mükəmməlliyi Mükafatı" Birləşmiş Ərəb Əmirlikləri Hökumətinin təşəbbüsü ilə Dünya Hökumət Sammiti çərçivəsində dünyada qabaqcıl hökumət təşəbbüslərinin qiymətləndirilməsi, dövlət xidmətlərinin göstərilməsi sahəsində innovasiyaları təşviq etməklə uğurlu təcrübələrin mükafatlandırılması məqsədilə təsis olunub.

Dünyada bu formatda ilk dəfə təsis olunmuş mükafatın qalibi olan Azərbaycan 80 namizəd ölkə arasından seçilib.

# Mikayıl Hüseynov və Sadıq Dadaşovun birgə abidəsi ilə bağlı müsabiqə

Mədəniyyət Nazirliyi görkəmli Azərbaycan memarları Mikayıl Hüseynovun və Sadıq Dadaşovun xatirələrinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində ucaldılacaq abidənin eskiz layihələrinin hazırlanması üçün heykəltəraşlar arasında açıq müsabiqə elan edib. Müsabiqə 17 fevral – 17 aprel 2023-cü il tarixlərində keçiriləcək.

Müsabiqə Mikayıl Hüseynovun və Sadıq Dadaşovun birgə abidəsinin ucaldılması haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 8 oktyabr 2022-ci il tarixində imzaladığı sərəncamın icrasını təmin etmək məqsədilə keçirilir.

Sərəncama əsasən, Azərbaycanda memarlıq sənətinin təşəkkülündə mühüm xidmətləri olan Mikayıl Ələsgər oğlu Hüseynovun və Sadıq Ələkbər oğlu Dadaşovun xatirələrinin əbədiləşdirilməsi məqsədilə onların vahid kompozisiya şəklində birgə abidəsi qoyulacaq.

Bakı Şəhər İcra Hakimiyyətinə Mədəniyyət Nazirliyi ilə birlikdə abidənin ucaldılması ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etmək, Nazirlər Kabinetinə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Müsabiqəyə təqdim olunan eskiz layihələr Mədəniyyət Nazirliyinin "Heykəltəraşlıq abidələrinin, xatirə-memorial və memarlıq komplekslərinin ucaldılması və demontajı üzrə Ekspert komissiyası"nın üzvləri tərəfindən qiymətləndiriləcək. Layihələrin müzakirəsi qapalı şəraitdə keçiriləcək.

Müsabiqənin qalibi barədə məlumat əsas mərhələ başa çatdıqdan 15 gün sonra – 15 may 2023-cü il tarixində Mədəniyyət Nazirliyinin rəsmi saytında (culture.gov.az) yayımlanacaq. İkinci və üçüncü yeri tutan müəlliflərə müvafiq olaraq 2000 manat və 1000 manat məbləğində pul mükafatı təqdim ediləcək.

Müsabiqə şərtləri və qeydiyyat forması Mədəniyyət Nazirliyi saytının "Elanlar" bölməsində.

# Qətər ölkəmizlə mədəni əlaqələrin inkişafında maraqlıdır

Azərbaycanın Qətərdəki yeni səfiri Mahir Əliyev bu ölkənin mədəniyyət naziri Şeyx Əbdül Rəhman bin Həməd Al Tani ilə görüşüb.

Səfirlikdən bildiriblər ki, görüşdə iki ölkə arasında mədəniyyət sahəsində mövcud əlaqələrin inkişaf istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.

Şeyx Əbdül Rəhman bin Həməd Al Tani diplomatı təyinatı münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Nazir Qətərin Azərbaycanla mədəniyyət sahəsində əlaqələrin inkişaf etdirilməsində maraqlı olduğunu qeyd edərək ölkəmiz haqqında gözəl təəssüratlarının olduğunu bildirib. O, ötən il Bakıda keçirilmiş IX Qlobal Bakı Forumunda iştirak etdiyini və səfər çərçivəsində Azərbaycanın Baş naziri, mədəniyyət naziri ilə görüşlər keçirdiyini, eyni zamanda Bakıdakı Heydər Əliyev Mərkəzini ziyarət etdiyini xatırladıb.

Səfir Mahir Əliyev iki ölkə arasında siyasi əlaqələrin yüksək xətlə inkişaf etdiyini və mədəniyyət sahəsində də əməkdaşlığın genişlənməsinin vacibliyini diqqətə çatdırıb.

Görüşdə həmçinin 2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan olunduğu nəzərə alınaraq bu çərçivədə Qətərdə bir sıra mədəni tədbirlərin keçirilməsi, o cümlədən Azərbaycan mədəniyyəti günlərinin təşkil olunması məsələləri ilə bağlı müzakirələr aparılıb.



# Azərbaycan-Almaniya: stabil və perspektivli əməkdaşlıq

## Berlində ölkəmizin mədəni irsi və Ermənistanın bu irsə qarşı törətdiyi əməllərdən də bəhs olunub

Almaniyanın "Business & Diplomacy" jurnalının təşkilatçılığı ilə Berlində "Azərbaycan və Almaniya: stabil və perspektivli enerji əməkdaşlığı" adlı tədbir keçirilib.

Almaniyanın dövlət qurumlarının təmsilçiləri, xarici diplomatlar, media nümayəndələri, elm və mədəniyyət xadimlərinin qatıldığı tədbirin əvvəlində Azərbaycana dair qısa videoçarx nümayiş etdirilib.

Sonra Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev tədbirin aparıcıları – "Business & Diplomacy" jurnalının əməkdaşları Frank Şüttiq və Rayner Şubertin sualları əsasında Azərbaycanın tarixi, mədəniyyəti, iqtisadi-sosial inkişafı, qonşuları ilə münasibətləri, Azərbaycandakı alman irsi, Azərbaycan-Almaniya münasibətləri və s. barədə iştirakçılara məlumat verib.

Diplomat Azərbaycanın 1918-ci ildə müsəlman dünyasında ilk demokratik respublikanın qurulduğu, zəngin mədəniyyətə və multikultural dəyərlərə malik ölkə olduğunu bildirib. Səfir Azərbaycanın enerji sahəsində Avropa ilə fəal əməkdaşlıq etdiyini və Avropa İttifaqının (Aİ) etibarlı tərəfdaşı olduğunu qeyd edib. Ölkəmizin təşəbbüsü və liderliyi ilə həyata keçirilən Cənub Qaz Dəhlizi, TAP, TANAP və s. kimi transregional layihələrdən bəhs edən N.Ağayev bu qarşılıqlı faydalı əməkdaşlığın Aİ, o cümlədən Almaniya ilə münasibətlərin daha da dərinləşməsinə öz töhfəsini verəcəyinə əmin olduğunu vurğulayıb.



N.Ağayev Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması, işğal dövründə Ermənistan tərəfindən Azərbaycanın mədəni və dini abidələrinə qarşı törədilmiş mədəni soyqırımı, Laçın-Xankəndi yolu ətrafında ölkəmizə qarşı aparılan qərəzli kampaniya və s. barədə də məlumat verib.

Tədbir zamanı iştirakçılara Azərbaycanın işğaldan azad olunmuş ərazilərində dağıntıların miqyasını əks etdirən məlumatlar, turizm kitabçaları, habelə digər materiallar paylanılıb.

# Fransadakı səfirimiz tələbələri Azərbaycan tarixi barədə məlumatlandırıb

## XIX əsrdə Azərbaycan ikiyə bölünüb, bu gün İranda 30 milyon soydaşımız yaşayır

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva bu ölkənin ən nüfuzlu ali təhsil ocaqlarından olan Siyasi Elmlər Universitetinin (Science Po de Paris) tələbələri ilə görüşüb.



Səfir tələbələrə Azərbaycanın zəngin tarixi və mədəni irsi, xarici siyasəti və regionda yaratdığı yeni reallıqlar haqqında danışıb.

Ölkəmizin çox mühüm geosiyasi məkanda yerləşdiyini diqqətə çatdıran Leyla Abdullayeva XIX əsrdə Azərbaycanın iki imperiya arasında bölünməsindən, bu gün İranda 30 milyondan çox azərbaycanlının yaşamasından söz açıb. XX əsrin əvvəllərində müsəlman Şərqində ilk demokratik, o cümlədən qadınlara seçib-seçilmək hüququ verən respublikanın Azərbaycanda qurulduğu diqqətə çatdırılıb.

Diplomat XX əsrin sonlarında Azərbaycanın müstəqilliyini bərpa etməsi, eyni zamanda ərazisinin bir hissəsinin Ermənistan tərəfindən işğal edilməsi, Ümummilli lider Heydər Əliyevin yenidən müstəqilliyini itirmək təhlükəsi qarşısında qalan ölkənin xilaskarı olması, torpaqlarımızın işğal altında qaldığı otuz il müddətində münaqişənin dinc yolla həlli üçün göstərilən səylər haqqında danışıb. 2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun sayəsində torpaqlarımızın azad edildiyi, ölkəmizin regionda yeni reallıqlar yaratdığı, davamlı sülh niyyətində olduğu diqqətə çatdırılıb.

Siyasi Elmlər Universitetinin tələbələri Azərbaycanın beynəlxalq təşkilatlara üzvlüyü, bir sıra beynəlxalq təşkilatlara, o cümlədən Qoşulmama Hərəkatına sədrliyinə, zirvə görüşlərinə ev sahibliyi etməsinə dair ətraflı məlumat alıblar.

Sonda səfir tələbələrin suallarını cavablandırıb.

# Teatr Muzeyi yubileylər ilini müxtəlif tədbir və layihələrlə qeyd edəcək

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi milli səhnə sənətimizə dair materialların toplanması, mühafizəsi və nümayişi ilə yanaşı, peşəkar teatr tariximizin təbliği işini də həyata keçirir. Peşəkar milli teatrımızın 150 illik yubileyi bu muzey üçün də əlamətdar hadisədir və yubiley müxtəlif tədbir və layihələrlə qeyd olunacaq.



Bu barədə məlumat verən muzeyin direktoru Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova bildirib ki, bu il Xalq artistləri Rafiq Əzimovun 85, Hökümə Qurbanovanın 110, Hamlet Qurbanovun 85 illik yubileyləri qeyd olunacaq.

Muzey TÜRKSOY-un Ankaradakı iqamətgahında Azərbaycan teatrının 150 illiyi ilə bağlı keçirilməsi nəzərdə tutulan tədbirə peşəkar səhnə sənətimizlə bağlı eksponatlar əsasında hazırlanmış videoçarx və sərgi ilə qatılacaq.

Direktor bildirib ki, 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər də nəzərdə tutulub: "Ulu öndər Heydər Əliyev Azərbaycanda bütün sahələrə, o cümlədən mədəniyyətin inkişafına hər zaman böyük diqqət və qayğı göstərib. İl ərzində görəcəyimiz bütün işlər hər iki mühüm yubileyi əhatə edəcək".

Direktor qeyd edib ki, muzeydə 140 mindən artıq eksponat toplanıb. Milli səhnə tariximizə, korifey sənətkarların həyat və yaradıcılığına dair elmi tədqiqat əsərlərinin, monoqrafiya və oçerklərin yazılmasında bu zəngin fonddan geniş istifadə olunur. Mədəniyyət və incəsənətimizlə bağlı televiziya və mətbuatımızın hazırladığı buraxılışlar, sənədli filmlər bizim eksponatlar əsasında ərsəyə gəlir. Tədqiqatçılar sırasında hətta xarici ölkələrdə yaşayan və Azərbaycan mədəniyyətini araşdıranlar da var.

Muzey xarici ölkələrin Azərbaycanda fəaliyyət göstərən bir sıra səfirliklərinə də lazımi fond materialları ilə köməklik göstərir. Bu yaxınlarda Qırğızıstan və Yunanıstan səfirliklərinin müraciətlərinə müsbət cavab verilib. Muzey Rusiyanın bir sıra muzeylərinə vaxtilə Azərbaycanın teatr səhnəsində çalışmış rus mənşəli sənətkarlarla bağlı məlumatların araşdırılmasında yardımçı olub.

"Ölkəmizdə yaradılan bir sıra muzeylərin, o cümlədən Dağ Yəhudilərinin Tarix Muzeyinin ekspozisiyasının qurulmasında da tarixi sənədlərlə iştirak etmişik. Odur ki, Azərbaycan Dövlət Teatr Muzeyi yalnız özünün ekspozisiyası ilə deyil, fondlarında qorunan digər eksponatları ilə də teatr tariximizə ən yaxşı bələdçidir", – deyə Sevinc Mikayılova bildirib.

# Respublika Uşaq Kitabxanasına şagirdlərin ekskursiyası

Böyük maarifçi, pedaqoq, ədəbiyyatşünas, Azərbaycan ədəbiyyat tarixçiliyi elminin banisi F.Köçərlinin (1863-1920) anadan olmasının 160 illiyi münasibətilə 23, 25, 28, 234, 322 saylı məktəblərin və "Hədəf" liseyi şagirdlərinin Respublika Uşaq Kitabxanasına ekskursiyası təşkil olunub.




Kitabxana əməkdaşları məktəbliləri kitabxana ilə yaxından tanış edib, yeni texnologiyaların tətbiqi, oxucuların dünyagörüşünün zənginləşməsində kitabların müstəsna rolundan bəhs edib.

Diqqətə çatdırılıb ki, Firidun bəy Köçərlinin uşaq folklorunun toplanılması sahəsində müstəsna xidmətləri var. Ədibin "Balalara hədiyyə" kitabı uşaq folklorunun toplanılıb nəşr etdirilməsi yolunda atılmış ilk böyük addım olub. Azərbaycan folklorunun ilk antologiyası olan "Balalara hədiyyə" kitabı uşaqların dünyagörüşünün formalaşmasında, həyat və təbiət haqqında təsəvvürlərinin yaradılmasında mühüm rol oynayıb.

Firidun bəy Köçərlinin həyat və yaradıcılığı, onun yolunu davam etdirən ömür-gün yoldaşı Badisəba xanımın fəaliyyəti və Bakıda, Şəkidə internat məktəblərinin açılmasında rolundan bəhs edən sənədli film nümayiş olunub.

# BXA-da klassik rəqs üzrə tədris vəsaitinin təqdimatı



Bakı Xoreoqrafiya Akademiyasında (BXA) İncəsənət fakültəsinin Baletmeyster sənəti kafedrasının müdiri pedaqogika üzrə fəlsəfə doktoru, professor Lyudmila Həsənovanın "Klassik rəqs üzrə metodiki tədris vəsaiti və proqramı" adlı dərs vəsaitinin təqdimatı keçirilib.

Təqdimatda BXA-nın rəhbərliyi və professor-müəllim heyəti iştirak edib.

Bildirilib ki, dərs vəsaiti xoreoqrafiya ixtisasları üzrə təhsil alan tələbələr – bakalavrlar, magistrantlar, eləcə də müəllimlər üçün nəzərdə tutulsa da, eyni zamanda həvəskar rəqs sevənlər üçün də böyük maraq doğuracaq. Həm tələbələrin, həm də müəllimlərin yararlanacağı dərslik xoreoqrafiya sənətinin incəlikləri və spesifik xüsusiyyətləri barədə ətraflı anlayış yaradır.

Müəllif professor Lyudmila Həsənova da dərs vəsaiti haqqında ətraflı məlumat verib.

Təqdimat zamanı BXA-nın müəllim, tələbə və şagirdlərinin ifasında ayrı-ayrı rəqslər nümayiş olunub.

# "Qu gölü" zəriflərin bayramına hədiyyə olacaq

## Sankt-Peterburq Mariinski Teatrının ulduzları Bakıya gələcək

Martın 8-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında P.Çaykovskinin "Qu gölü" baletinin tamaşası nümayiş olunacaq.

Teatr hər il 8 Mart – Beynəlxalq Qadınlar Günü ərəfəsində bu tamaşanı bayram hədiyyəsi kimi təqdim edir.

"Qu gölü"nün builki tamaşası əvvəlkilərə bənzəməyəcək. Bu dəfə Opera və Balet Teatrının rəhbərliyi Sankt-Peterburqun Mariinski Teatrının ulduzlarını Bakıya dəvət edib.

Həmin gün tamaşada prima balerina Nadejda Batoyeva (Odetta-Odilliya) və Filip Styopin (Şahzadə Ziqfrid) çıxış edəcəklər.

Mariinski Teatrının ulduzları ilə yanaşı, yerli balet truppasının aparıcı solistləri – Əməkdar artistlər Samir Səmədov, Makar Ferştandt, Anar Mikayılov, Elmira Süleymanova, həmçinin Ayan Eyvazova, Timur Oduşev, Seymur Hadıyev, Samirə Məmmədova, Kamran Qurbanov və başqaları da səhnədə olacaqlar.

Tamaşanı Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru və musiqi rəhbəri, Əməkdar artist Əyyub Quliyev idarə edəcək.

**Lalə**



# Həştərxanda Heydər Əliyevin 100 illiyi ilə bağlı tədbirlər keçiriləcək

## Azərbaycan mədəniyyəti günləri də nəzərdə tutulur

Rusiyanın Həştərxan vilayətində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə silsilə tədbirlər keçiriləcək.




Bu barədə Həştərxan Vilayəti Hökumətinin və Xarici Əlaqələr Nazirliyinin saytlarında məlumat verilib. Vilayətin rəhbəri İqor Babuşkin tərəfindən bununla bağlı sənəd imzalanıb. Tədbirlərin hazırlanıb keçirilməsi üçün yaradılmış təşkilat komitəsinə vilayət hökumətinin üzvləri, bələdiyyələr, tədris müəssisələri və ictimaiyyət nümayəndələri daxildir.

Vilayətin xarici əlaqələr naziri Vladimir Qolovkov deyib: "Həştərxan vilayəti ilə Azərbaycan arasında əlaqələr təkcə işgüzar tərəfdaşlıq münasibətləri deyil. Bizi zamanla sınanmış güclü dostluq telləri birləşdirir. Heydər Əliyev Fondu tərəfindən Həştərxanda bir sıra sosial əhəmiyyətli layihələr həyata keçirilib. Burada Heydər Əliyevin abidəsi ucaldılıb, onun adını daşıyan park salınıb. Müqəddəs knyaz Vladimirin abidəsi qoyulub. 11 nömrəli orta məktəbin binası yenidən qurulub, indi bu məktəb Heydər Əliyevin adını daşıyır. Uşaq bağçası tikilib, Rusiya-Azərbaycan dostluq körpüsü inşa edilib".

Ulu öndərin 100 illiyi münasibətilə Həştərxan vilayətinin təhsil müəssisələrində rəsm, foto, şeir qiraəti, inşa və kompüter yaradıcılığı müsabiqələri, eləcə də ədəbi gecələr keçiriləcək. Həştərxan və Azərbaycan məktəbliləri arasında telekörpü yaradılacaq.

Ali təhsil müəssisələri də yubiley tədbirlərinə fəal qoşulacaqlar. Həştərxan Dövlət Texniki Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin birgə təşkilatçılığı ilə, eləcə də Həştərxan Dövlət Universitetində dəyirmi masalar keçiriləcək.

Bundan əlavə, vilayətdəki Xəzər Dəniz və Çay Nəqliyyatı İnstitutunda Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi nəzərdə tutulub. Silsilə tədbirlərə may ayında Həştərxanda Azərbaycan incəsənət xadimlərinin, iyun ayında isə Həştərxanın yaradıcı kollektivlərinin Bakıda təşkil olunacaq konsertlərdə iştirakı nəzərdə tutulub.

**L.Azəri**

# "Baharın rəngləri"

## Uşaq rəsm müsabiqəsi

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC, Xətai Rayon İcra Hakimiyyəti, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində "Baharın rəngləri" adlı Respublika uşaq rəsm müsabiqəsi üçün əsər qəbulu elan olunur.

21 yaşa qədər gənclər, uşaq və yeniyetmələr Xətai Sənət Mərkəzinin "Facebook" qrupuna daxil olub çəkdiyi əsərin fotosu ilə bərabər əsərin adı, texnikası, özləri haqqında məlumatı yerləşdirməklə müsabiqəyə qatıla bilərlər. Müsabiqəyə işlərin qəbulu 2 mart tarixinədək davam edəcək.

Ətraflı məlumatı Xətai Sənət Mərkəzi və Azərbaycan Dövlət Rəsm Qalereyasının sosial media hesablarında əldə etmək olar.

# "Muğam axşamları"nda növbəti konsert proqramı

Beynəlxalq Muğam Mərkəzində (BMM) "Muğam axşamları" layihəsi davam edir. Fevralın 17-də keçiriləcək növbəti konsert proqramı "Bayatı-Qacar" və "Şüştər" muğamlarına həsr olunub.



Muğamlar Sevinc Sarıyeva, Nisbət Sədrayeva, Rəvanə Qurbanova və Məmməd Nəcəfovun ifalarında təqdim olunacaq.

BMM-də "Muğam axşamları" layihəsi 2017-ci ildən həyata keçirilir. Muğam sənətimizin fəlsəfəsini gələcək nəsillərə çatdırmaq məqsədilə reallaşan layihəyə tamaşaçılar böyük maraq göstərir.

# Bakıdakı Rus evində məşhur bəstəkarın musiqiləri səslənib

Bakıdakı Rus evində görkəmli bəstəkar Aleksandr Darqomıjskinin (1813-1869) 210 illiyinə həsr edilmiş konsert olub.



Rusiya İnformasiya Mədəniyyət Mərkəzindən verilən məlumata görə, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının baş müəllimi Alyona İnyakinanın tərtib etdiyi konsert proqramına bəstəkarın yaradıcılığından nümunələr daxil edilib.

Konsertdə Əməkdar artist Anton Ferştandt, Lalə Muxtarova, Dilarə Kərimova, Ülviyyə Əliyeva, Fərhad Ələkbərov, Ruslan Persan, Kamilla İmanova, Əminət Əhmədova və Atifə Qarabağinin ifaları maraqla qarşılanıb.

Aleksandr Darqomıjski musiqidə realistik janrın əsasını qoymuş rus bəstəkarıdır. Onun şah əsəri olan "Su pərisi" yeni janrın – xalq-məişət psixoloji musiqi dramının ilk nümunəsi sayılır. Darqomıjski musiqiyə ilk dəfə sosial bərabərsizlik mövzusunu gətirib.

№13 (1982)
17 fevral 2023
www.medeniyyet.az

# Tarix yazan qəhrəmanlar

Sumqayıt şəhər N.Nərimanov adına Mədəniyyət Mərkəzinin "Gənclik" klubu tərəfindən Vətən müharibəsi şəhidi Tacəddin İsmayılzadənin xatirəsinə həsr olunan tədbir təşkil edilib.



Sumqayıt RMİ-nin Qubadlı rayon nümayəndəliyi Vətən Müharibəsi Qəhrəmanı şəhid polkovnik-leytenant Faiq Qasımovun doğum günü münasibətilə "Əbədi yaşayacaqsan" adlı tədbir keçirib. Qubadlı rayon V.Əliyev adına Mədəniyyət evi və Mahmudlu kənd Mədəniyyət evinin hazırladığı kompozisiya təqdim olunub, şeirlər söylənilib.

***

Yardımlı rayon Heydər Əliyev Mərkəzində Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar "Unudulmayan faciə" adlı tədbir keçirilib. Tədbirdə "Qisası alınan torpaq" adlı sərgi nümayiş olunub.

***



Goranboy rayon Mədəniyyət Mərkəzinin Zeyvə kənd Folklor evində 1-ci Qarabağ müharibəsi şəhidi Mirbala Rəsulova həsr edilmiş "Tarix yazan qəhrəmanlar" adlı anım tədbiri keçirilib. Məktəblilər vətənpərvərlik mövzusunda şeirlər səsləndiriblər.

# Mənə kitab bağışla...

14 fevral – Beynəlxalq Kitab Bağışlama Günü münasibətilə bölgələrdə müxtəlif tədbirlər təşkil edilib.



**İsmayıllı RMİ.** Şamaxı rayon Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə əlamətdar gün münasibətilə tədbir keçirilib. Çıxışlarda kitab və mütaliənin əhəmiyyəti qeyd olunub.

***

**Xaçmaz RMİ.** Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının oxu zalında "Mənə kitab bağışla" adlı tədbir keçirilib. "14 fevral Beynəlxalq Kitab Bağışlama Günüdür" adlı sərgi nümayiş olunub.

***

**Ağstafa RMİ.** Ağstafa rayon Mərkəzi Kitabxanasında "Kitab tutan əllər" mövzusunda tədbir keçirilib. Çıxışçılar mütalie mədəniyyətinin formalaşmasında kitabın rolundan, gələcək nəsillərin dünyagörüşünün inkişafında kitabın xüsusi rolundan bəhs ediblər.

***



**Biləsuvar RMİ.** Salyan Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları rayonun Ə.Kürçaylı adına texniki fənlər təmayüllü məktəb-liseyin icma əsaslı məktəbəqədər təhsil qrupunda qonaq olub və uşaqlara nağıl və şeir kitabları hədiyyə ediblər.

***

**Gəncə RMİ.** Gəncə şəhər Mərkəzi Kitabxanasının Uşaq şöbəsi K.D.Uşinski adına 29 nömrəli tam orta məktəbdə "Dünyanı kitablarla tanıyaq" başlığı altında kitab sərgisi təşkil edib.

MKS-nin 15 saylı kitabxana filialı isə "Kitabsız bir ömrün nə mənası var?" başlığı altında tədbir keçirib. M.Ş.Vazeh adına 16 saylı tam orta məktəbin 7-ci sinif şagirdləri "Bir qalanın sirri" filmindən Elşənin kitablarla olan söhbətini səhnəcik formasında təqdim ediblər.

# Jurnalist-hərbçinin 60 illiyi qeyd olunub

Ağdam Muğam Mərkəzində "Azərbaycan Bayrağı" ordenli Əməkdar jurnalist, "Ağdam" qəzetinin redaktoru "Baxşeyiş Abbasoğlunun 60 illik yubileyi qeyd edilib.



Əvvəlcə yubilyar haqqında videoçarx nümayiş etdirilib. Qeyd olunub ki, B.Abbasoğlu jurnalistlik fəaliyyətinə 1987-ci ildə "Ağdam" (o vaxt "Lenin yolu") qəzetində müxbir kimi başlayıb. 1991-1996-cı illərdə Azərbaycan Ordusunda xidmət edib. 1995-ci ildə "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib. Ehtiyatda olan baş leytenant, II qrup Qarabağ müharibəsi əlilidir. 1998-ci ildən "Ağdam" qəzetinin redaktorudur.

Çıxış edənlər ehtiyatda olan zabitin Birinci Qarabağ müharibəsindəki döyüş yolundan və mətbuat sahəsində xidmətlərindən danışıb, ona yeni yaradıcılıq uğurları arzulayıblar.

Yubilyara rayon İcra Hakimiyyətinin fəxri fərmanı təqdim edilib, müəllifi olduğu şeirlər səsləndirilib.

Sonda Əməkdar jurnalist çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılara minnətdarlığını bildirib.

**Hazırladı: N.Məmmədli**

# "Sən elə bir zirvəsən..."

## Yerlərdə "Heydər Əliyev İli" tədbirləri davam edir

**Kürdəmir RMİ.** Kürdəmir rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev məktəbi" layihəsi çərçivəsində tarix dərsi keçirilib. "Heydər Əliyev və azərbaycançılıq" mövzusunda dərsdə Ulu öndərin dövlətçilik tarixindəki yerindən ətraflı söz açılıb.

Regional idarənin Füzuli rayon nümayəndəliyinin təşkilatçılığı ilə Babı kənd Mədəniyyət evində "Heydər Əliyev – 100" adlı sərgi keçirilib. Sərgidə Mədəniyyət evindəki rəsm dərnəyinin üzvü, gənc həvəskar rəssam Aysu Məmmədovanın 30-dan çox əl işi nümayiş olunub.

***

**Sabirabad RMİ.** Sabirabad rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyevin yaşayan və yaşadan ideyaları" adlı tədbir keçirilib. Qeyd olunub ki, Ulu öndər öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Tədbirin sonunda Heydər Əliyevin 100 illiyi ilə bağlı videoçarx nümayiş etdirilib.









Hacıqabul rayon Heydər Əliyev Mərkəzinin kino zalında Ümummilli liderin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev. Dünyaya pəncərə" sənədli filmi nümayiş etdirilib. Filmin rejissoru Xalq artisti Eldar Quliyev, ssenari müəllifləri Aydın Dadaşov və Eldar Quliyevdir.

Saatlı rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə çıxış edənlər Ümummilli liderin Azərbaycan mədəniyyətinin inkişafına göstərdiyi diqqət və qayğıdan, bununla bağlı qəbul etdiyi qərarlardan danışıblar.

***

**Masallı RMİ.** Masallı rayon Mərkəzi Kitabxanasında Masallı Təhsil Sektoru ilə birgə "Heydər Əliyevin dövlətçilik irsinin öyrənilməsi" mövzusunda tədbir keçirilib. Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə gerçəkləşən tədbirdə F.Dəmirov adına Təklə kənd tam orta məktəbi və 2 saylı Təzə Alvadı kənd tam orta məktəbinin bir qrup şagirdi iştirak edib.

***

**Şəki RMİ.** Şəki şəhər Heydər Əliyev Mərkəzi və şəhər MKS-nin 9 nömrəli kitabxana filialının birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan təhsili" mövzusunda tədbir keçirilib. Tədbirdə eyniadlı videoçarx nümayiş etdirilib.

Zaqatala rayon Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə rayonun Tarix-Diyarşünaslıq Muzeyində "Heydər Əliyev milli-mənəvi dəyərlərimizin hamisidir" mövzusunda tədbir təşkil olunub. Çıxış edənlər Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətindən, mədəniyyət sahəsinin inkişafına göstərdiyi diqqət və qayğıdan danışıblar.

S.Vurğun adına Qax rayon Mədəniyyət Mərkəzi, rayon Heydər Əliyev Mərkəzi, C.Cabbarlı adına Mərkəzi Kitabxana və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və mədəniyyət" mövzusunda elmi konfrans keçirilib.

***

**Ağstafa RMİ.** Ağstafa rayon mədəniyyət müəssisələri əməkdaşlarının iştirakı ilə Ulu öndərin zəngin dövlətçilik irsinin öyrənilməsi və yeni nəslə aşılanması məqsədilə tədbir keçirilib. Qeyd olunub ki, bu gün Heydər Əliyev ideyaları əsasında dinamik inkişaf edən, qüdrəti və beynəlxalq nüfuzu getdikcə artan Azərbaycan yeni zirvələr fəth edir. Qazanılan bütün nailiyyətlərin əsasında da Ulu öndərin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi dayanır.

Tovuz rayon Heydər Əliyev Mərkəzi və rayon Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə "Sən elə bir zirvəsən..." mövzusunda tədbir keçirilib. Bildirilib ki, ölkəmiz Ulu öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində dünyada layiqli yerini tutub.

# Ağdam necə yenidən qurulur?

## Şəhərsalma məsələləri üzrə işçi qrupun iclası keçirilib

əvvəli səh. 1-də

İclasda Ağdamda aparılan tikinti-quruculuq işləri, rayonun ilk bərpa ediləcək kəndlərin tikinti layihələri, Ağdam şəhərinin daxili yol-küçə şəbəkəsinin layihələndirilməsi istiqamətində görülmüş işlər, bərpa ediləcək yaşayış məntəqələrinin elektrik enerjisi, su təminatı, eləcə də infrastruktur təminatı obyektləri üzrə görüləcək işlərin vəziyyəti müzakirə olunub.

Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov diqqətə çatdırıb ki, hazırda Ağdamda bir neçə yeni pilot layihə tətbiq edilir. Prezidentin tapşırığı ilə layihələndirilən bütün işlərə başlanılıb: "Qarşımıza 2026-cı ilə qədər bir çox iqtisadi hədəflər qoyulub. Ağdam, Füzuli, Tərtər, Ağcabədi ərazilərində çoxsaylı infrastruktur layihələrinə başlanılıb. İlkin olaraq, 20 ailənin köçürülməsi üzrə işlər sürətlənib. Ümumi olaraq cəmi 15999 ev tikiləcək. Ağdam şəhərində isə 5608 evin tikilməsi nəzərdə tutulur".

Emin Hüseynovun sözlərinə görə, Ağdamda 2 yaşayış məhəlləsinin layihələndirilməsinə başlanılıb. Daha 2 layihə də nəzərdə tutulur. 2023-cü ildən bu layihələr hissə-hissə yerinə yetiriləcək.

Tərtər rayonunun Talış kəndində isə tikinti işlərinin birinci mərhələsi yekunlaşmaq üzrədir, fevralın sonuna qədər işlər başa çatdırılacaq: "Ümid edirik ki, fevralın sonuna qədər həmin ərazi 20 ailənin köçürülməsi üçün hazır olacaq. Hazırda orada gecə-gündüz iş aparılır".



Ağdam şəhərinin birinci yaşayış məhəlləsində 1139 mənzilin tikintisi planlaşdırılır. İkinci yaşayış məhəlləsində 1261 mənzil tikiləcək. Hər iki faza üzrə işçi layihələrin hazırlanması üçün müqavilələr bağlanılıb.

Bunu isə "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin icraçı direktoru Övsət Həmidov deyib.

O qeyd edib ki, Ağdam Zəfər muzeyi və açıq hava altında İşğal muzeyinin sol tərəfində üçüncü və dördüncü yaşayış məhəlləsi yerləşəcək. Üçüncü yaşayış məhəlləsində 1239 mənzil, dördüncü yaşayış məhəlləsində isə 892 mənzil inşa ediləcək. Şəhərin şimalında salınacaq beşinci yaşayış məhəlləsində 1034 mənzil inşa ediləcək.

Övsət Həmidov diqqətə çatdırıb ki, işğaldan azad edilmiş rayonların arasında ən birinci Ağdamın Baş planı təsdiqlənib və ictimaiyyətə təqdim olunub.

Ağdamda istər minatəmizləmə işlərində, istərsə də baza infrastrukturunun qurulması sahəsində vacib işlər görülüb. Avtomobil və dəmir yolları, elektrik xətlərinin çəkilməsi istiqamətində layihələr yekunlaşır. Həmçinin sosial-iqtisadi infrastrukturun qurulması üzrə işlər görülməkdədir. Ağdamın 1 nömrəli məktəbi ilə əlaqədar yekunlaşma işləri aparılır.

Tarixi-mədəni abidələrdə də restavrasiya işləri aparılır. Eləcə də şəhərdaxili yaşayış məhəllələrinin konsept həllərinin işlənilməsi və işçi layihələrin irəliləməsi istiqamətində ciddi addımlar atılır. "Böyük Qayıdış" Dövlət Proqramının birinci mərhələsi üzrə, yəni 2026-cı ilin sonunadək Ağdam şəhərinə və ətraf kəndlərə ümumilikdə 42 min insanın köçürülməsi qarşıya məqsəd qoyulub.

İşğaldan azad edilmiş bütün ərazilərdə bu il genişmiqyaslı tikinti-quruculuq işlərinə başlanılması nəzərdə tutulur. 2022-2026-cı illərdə ümumilikdə 34 min 500 mənzilin tikilməsi nəzərdə tutulub.

Bunu isə jurnalistlərə müsahibəsində Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov deyib. Onun sözlərinə görə, 2025-ci ildə Ağdam şəhərinə və ilk bərpa olunan kəndlərə əhalinin köçürülməsi nəzərdə tutulub.

İclasdan sonra işçi qrupun üzvləri Ağdamda yaşayış binalarının tikildiyi ərazilərə baxış keçiriblər.

# Bölgələrdə Türkiyəyə yardım aksiyası davam edir





Türkiyədəki zəlzələdən zərərçəkmiş insanlar üçün fevralın 7-dən Bakıda və bölgələrdə başlanılan yardım toplama kampaniyası davam edir. Türkiyənin Azərbaycandakı Səfirliyi və Heydər Əliyev Fondu tərəfindən təşkil olunan kampaniyaya yerli şirkət və təşkilatlar, minlərə soydaşımız qoşulub.

Fevralın 14-də Qubadakı Azərbaycan-Türkiyə qardaşlıq parkından yardımla dolu iki yük maşını qardaş ölkəyə yola salınıb. Quba Rayon İcra Hakimiyyəti tərəfindən generatorlar, çadır, yataq dəstləri, zəruri gigiyenik vasitələr, elektrik qızdırıcıları və başqa avadanlıqlar göndərilib.

Gənclər üçün Təhsil Mərkəzi (GTM) Qarabağ regional ofisi və Yeni Azərbaycan Partiyası (YAP) Ağcabədi rayon təşkilatının birgə təşkilatçılığı ilə keçirilən yardım aksiyasına idarə, müəssisə və təşkilatların nümayəndələri və ictimaiyyət qoşulub. Əsasən isti geyimlər, dərman preparatları, yorğan-döşək, ərzaq və digər məhsullar toplanaraq Bakıdakı məntəqəyə təhvil verilib.

Cəlilabad Rayon İcra Hakimiyyəti tərəfindən 5 ədəd modul tipli ev – konteyner Bakı şəhərindən Türkiyəyə yola salınıb.

Türkiyəyə yardım kampaniyasına Bərdə RMİ də qoşulub. Humanitar yardım çərçivəsində isti paltarlar, qızdırıcı avadanlıqlar, uzun müddət saxlanılması mümkün olan qidalar, uşaq yeməkləri, tibbi və gigiyenik vasitələr və digər zəruri əşyalar toplanılaraq təyin olunmuş məntəqəyə təhvil verilib.

# "Düşüncəni rənglə̈ndir"

Gənclər Fondunun elan etdiyi "İdeyanı reallaşdır – 2022" qrant müsabiqəsinin qalibi olan "Düşüncəni rəngləndir" layihəsi üzrə Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində təlim təşkil olunub.

Layihə rəhbəri Rövşən Ağasizadə qeyd edib ki, əsas məqsəd regionda yaşayan gənclərin yaradıcı düşüncəsini zənginləşdirmək, analiz qabiliyyəti üzrə bilik və bacarıqları artırmaqdır. Layihəyə seçilən 18 gənc təlimlərə cəlb olunub.

Təlimçi Həsən Rəhimli tərəfindən kritik düşünmə sənəti, emosional zəka və duyğuların idarə edilməsi, maliyyə intellekti və pulu idarəetmə təfəkkürü, analitik bacarıqlar və s. mövzular üzrə təlimlər və diskussiyalar təşkil edilib.

# “Atam məni parlaq gənc kimi görmək istəyirdi...”

## Xalq artisti Rafael Bayramov: “Dirijorluq üzrə müəllimim olmayıb, öz həvəsimlə öyrənmişəm”

XX əsrin əvvəllərindən dahi bəstəkar Üzeyir Hacıbəyli tərəfindən professional musiqimizin əsasının qoyulması ilə dirijorluq sənəti də formalaşmağa başlayıb. Görkəmli musiqiçilər Müslüm Maqomayev və Niyazi tərəfindən məktəb səviyyəsinə yüksələn Azərbaycan dirijorluğu sonralar yeni sənətkar nəsillərinin yetişməsinə zəmin yaradıb.



F.Əmirov adına Gəncə Dövlət Filarmoniyası Kamera orkestrinin bədii rəhbəri və dirijoru, Xalq artisti Rafael Bayramov da bu məktəbin davamçılarındandır. Bu günlərdə sənətkar 70 illik yubileyini qeyd etdi.

Rafael Əli oğlu Bayramov 1953-cü il fevralın 1-də Gəncə şəhərində anadan olub. İlk təhsilini Gəncə şəhər 1 saylı musiqi məktəbində (hazırda F.Əmirovun adını daşıyır) alıb. 1972-ci ildə Qənbər Hüseynli adına Gəncə Orta İxtisas Musiqi Məktəbini skripka sinfi üzrə bitirib. Sonra Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) skripka üzrə təhsil alıb. Bir müddət Gəncə şəhər 1 saylı Musiqi məktəbində skripka müəllimi işləyib. Əməyi yüksək qiymətləndirilən musiqiçi 2017-ci ildə “Xalq artisti” fəxri adına layiq görülüb.

Hazırda Gəncə Dövlət Filarmoniyasında fəaliyyətini davam etdirir. 70 illik yubileyi münasibətilə Rafael Bayramovla əlaqə saxlayıb sənət yoluna qısa nəzər saldıq. İlk olaraq musiqi sahəsini seçməsinin səbəbini xəbər aldıq:

– İncəsənət sahəsinə gəlişimdə atamın böyük rolu olub. Atam çox savadlı və ziyalı adam idi. Bizim özümüzə məxsus kiçik bir kitabxanamız vardı. Fondu çox zəngin idi. Mən kiçik yaşlarımdan kitab oxumağı sevirdim. Demək olar ki, bu kitabların əksəriyyətini oxumuşdum. Atam məni parlaq gənc kimi görmək istəyirdi. İlk olaraq humanitar elmlərə həvəsim olub. Ancaq daha sonra musiqi sahəsinə üz tutdum.

*– Gəncə filarmoniyasına gəlişiniz necə oldu?*

– 1985-ci ildə Gəncə Kamera Orkestrinə dəvət almışam. O vaxt orkestrin rəhbəri İsmayıl Vəliyev idi. İki il sonra orkestr “Dövlət” statusu aldı. Ondan sonra orkestrdə konsertmeyster kimi fəaliyyət göstərdim. Məlum olduğu kimi, 1949-cu ildə Gəncə Dövlət Filarmoniyası fəaliyyətini dayandırmışdı. Filarmoniya 1990-cı ildə yenidən işini bərpa etdi. Bundan sonra Gəncə Dövlət Kamera Orkestri filarmoniyanın nəzdində fəaliyyət göstərməyə başladı. 1994-cü ildə orkestrin dirijoru, 1997-ci ildə direktoru, 2000-ci ilin əvvəllərində isə bədii rəhbəri vəzifəsinə təyin olunmuşam. Onu da deyim ki, 1990-cı illərdə orkestrdə solistlərin sayı az idi. Hazırda kollektivin 30 nəfərə yaxın üzvü var.

*– Dirijorluq sahəsində kimi özünüzə örnək hesab etmisiniz?*

– Bu sahədə həmişə görkəmli dirijorlarımız Niyazi və Rauf Abdullayevi özümə ustad saymışam. Onların televiziyada çıxışlarını böyük intizarla gözləyir, həvəslə izləyirdim. Bu həvəs sonradan dirijorluğa üz tutmağıma vəsilə oldu.

*– Bəs bu sənətin sirlərini kimdən öyrənmisiniz?*

– Dirijorluq üzrə müəllimim olmayıb, öz həvəsimlə öyrənmişəm, üzərimdə mütəmadi çalışmışam.

*– Hansısa xarici ölkədə qastrol səfərində olmusunuzmu?*

– 2011-ci ildə orkestr olaraq ikihəftəliyə Norveçə qastrol səfərinə getmişik. Həmin səfər zamanı ölkənin yeddi şəhərində yaddaqalan konsert proqramları ilə çıxış etdik. Bundan başqa, 2017-ci ildə Azərbaycan-Gürcüstan dostluq əlaqələrinin 25 illiyi münasibətilə Tbilisi şəhərində maraqlı konsert proqramımız oldu. Həmçinin Bakıda, Şəkidə və ölkəmizin digər bölgələrində də qastrol səfərlərində olmuşam.

*– Yubileyinizi necə qeyd etdiniz?*

– Yubileyimi orkestrin kollektivi ilə qeyd elədim. Bizdə bu artıq ənənə halını alıb. Kollektivdən başqa, təbii ki, ad günümü ailəmlə, yaxın qohumlarımla birlikdə keçirdim.

*– Son dəfə dirijorluq etsəydiniz, hansı bəstəkarın əsəri olmasını istəyərdiniz?*

– Açığı, bu sualınıza cavab verməyə çətinlik çəkirəm. Çünki görkəmli bəstəkarlarımızın çox sayda bir-birindən dəyərli əsərləri var. Ancaq son dəfə dirijorluq etsəydim, Qara Qarayevin “Yeddi gözəl” baletindən “Vals”ı və Aqşin Əlizadənin “Cəngi” əsərini istəyərdim.

*– Rafael müəllim, qəzetimizin kollektivi adından yubileyinizi təbrik edir, möhkəm cansağlığı və yeni yaradıcılıq uğurları arzulayırıq.*

– Mən də diqqətinizə görə “Mədəniyyət” qəzetinə minnətdaram.

**Nurəddin Məmmədli**

# Dünya ədəbiyyatının görkəmli şairi

## Bakıda Məhtimqulu Fəraqiyə həsr olunmuş elmi konfrans

Fevralın 15-də AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Türkmənistan Elmlər Akademiyasının Məhtimqulu adına Dil, Ədəbiyyat və Milli Əlyazmalar İnstitutunun birgə təşkilatçılığı ilə “Məhtimqulu Fəraqi – dünya ədəbiyyatının görkəmli şairi” mövzusunda elmi konfrans keçirilib.

Tədbir iştirakçıları Ədəbiyyat İnstitutunun foyesində türkmən şairinin yaradıcılığına və Türkmənistan mədəniyyətinə həsr edilmiş sərgi ilə tanış olublar.

AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru akademik İsa Həbibbəyli konfransda açılış nitqində Azərbaycan-Türkmənistan elmi-ədəbi əlaqələrindən danışıb.

Məhtimqulu Fəraqinin (1724-1807) ədəbi irsinin Azərbaycanda da tədqiq edildiyini deyən akademik bildirib ki, bu istiqamətdə əhəmiyyətli işlərdən biri AMEA alimlərinin ilk dəfə Bakıda aşkar edib üzə çıxardıqları M.Fəraqinin əlyazma “Divan”ının nəşr edilməsi olub. Bu, şairin “Divan”ının 1913-cü ildə Buxara şəhərində daşbasma üsulu ilə çap edilmiş və indiyədək naməlum qalan yeganə nüsxəsidir.



Türkmənistanın ölkəmizdəki səfiri Qurbanməmmet Elyasov türkmən xalqının qüdrətli şairi M.Fəraqi yaradıcılığına göstərilən diqqətə görə tədbirin təşkilatçılarına minnətdarlığını bildirib. Qeyd edib ki, Məhtimqulu Fəraqinin yaradıcılığı təkcə türkmən xalqının deyil, dünyanın digər xalqlarının da mədəniyyətinə təsir göstərib.

Səfir Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən mütəfəkkir şairin 300 illik yubileyi münasibətilə 2024-cü ilin “Məhtimqulu İli” elan edildiyini diqqətə çatdırıb. Diplomat ortaq mənəvi dəyərlər və dini-mədəni köklərlə bir-birinə bağlı olan Türkmənistan və Azərbaycan arasında münasibətlərdən söz açaraq, son illərdə müxtəlif istiqamətlərdə əməkdaşlıq əlaqələrinin daha da genişləndiyini söyləyib.

Konfransda professor Məmməd Əliyev “Məhtimqulu Fəraqi və Molla Pənah Vaqif şeirinin özəllikləri”, dosent İsmixan Osmanlı “Məhtimqulu Fəraqinin poemaları”, filologiya üzrə fəlsəfə doktoru Töhfə Talıbova “Məhtimqulu Fəraqi əsərlərinin müstəqillik dövrü Azərbaycan ədəbiyyatında tədqiqi məsələləri” mövzusunda məruzələrlə çıxış ediblər.

Türkmənistan EA-nın Məhtimqulu adına Dil, Ədəbiyyat və Milli Əlyazmalar İnstitutunun şöbə müdirləri Ata Qılıcov, Qurbanberdi Qurbangeldiyev, institutun elmi işçisi Yusup Lallakov, Türkmənistan Dövlət Muzeyinin şöbə müdiri Aymırat Amanqılıcov, Türkmənistan Dövlət Rəssamlıq Akademiyasının müəllimi Mıratmergen Kulıyev və AMEA Ədəbiyyat İnstitutunun baş elmi işçisi Nizami Tağısoy çıxış edərək M.Fəraqinin ədəbi irsi ilə bağlı fikirlərini bölüşüblər.

Konfrans işini panel iclasları ilə davam etdirib.

# ADPU-da nadir kitab və əlyazmaların sərgisi



Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Kitabxana-İnformasiya Mərkəzinin təşkilatçılığı ilə fevralın 15-də nadir kitabların sərgisi keçirilib.

ADPU-nun rektoru professor Cəfər Cəfərov diqqətə çatdırıb ki, universitetin kitabxanası xeyli sayda qədim və nadir kitabların, əlyazmaların da qorunduğu bir məkandır. Kitabxanada müxtəlif dövrlərə aid min nüsxəyə yaxın nadir kitab və əlyazma qorunur ki, onların yüzdən çoxu “Azərbaycan kitab abidələri” elektron reyestrində qeydiyyata alınıb, digər kitabların da işlənilməsi məqsədilə ADPU-nun kitabxanaçıları sahə üzrə mütəxəssisləri cəlb etməklə iş aparırlar.

Sosial və humanitar məsələlər üzrə prorektor professor Fikrət Rzayev qeyd edib ki, ADPU kitabxanasının fondunda ərəb, fars, rus, bir neçə Avropa dillərində, eləcə də əski əlifbada Azərbaycan dilində nəşr olunmuş müxtəlif sahələrə aid nadir nəşrlər qorunur. Onlardan ən qədimi 1741-ci ildə Sankt-Peterburqda nəşr olunmuş Osmanlı dövlətindən bəhs edən kitabdır.

Milli Məclisin deputatları Anar İsgəndərov və Etibar Əliyev belə bir irsin mühafizə olunmasının önəminə diqqət çəkərək nadir kitabların mütəxəssislər tərəfindən reyestrə salınması, transliterasiyası və s. məsələlərin vacibliyini qeyd ediblər.

# Kitabxanadan “SOS uşaq kəndi”nə kitab sovqatı

F.Köçərli adına Respublika Uşaq Kitabxanası 2014-cü ildən etibarən hər il 14 fevral – Beynəlxalq Kitab Bağışlama Günü münasibətilə müxtəlif məkanlarda uşaqları sevindirir.



Bu dəfə kitabxana “SOS uşaq kəndi”nə kitab sovqatı aparıb. Əlamətdar gün münasibətilə burada yaşayan uşaqlara müxtəlif yaş qruplarına dair kitablar hədiyyə edilib.

Qeyd edək ki, 2012-ci ildən qeyd edilən bu bayram ABŞ-da “Delightful Children’s Books” uşaq kitabı saytının yaradıcısı Emmi Brodmoorun adı ilə bağlıdır. Bu gün uşaqlara kitab bağışlayan və onlarda kitaba sevgi yaradan bütün insanları birləşdirir.

Bu əlamətdar günün təbliğində tanınmış müəlliflərin, uşaq yazıçılarının, eləcə də kitabxanaların dəstəyi mühüm rol oynayır.

# Şəhid övladları STEAM İnnovasiya Mərkəzində

Bakıdakı STEAM İnnovasiya Mərkəzinə şəhid övladlarının ziyarəti təşkil olunub. Elm və Təhsil Nazirliyindən bildirilib ki, fevralın 15-də mərkəzə gələn 80-dən çox şəhid övladı mütəxəssislər tərəfindən əvvəlcədən hazırlanmış proqram əsasında əyləncəli və öyrədici məzmuna malik elm şousu, ideya emalatxanası, “Rəqəmlərlə havada” adlı uçuş simulyatoru, eləcə də “Sfera üzərində elm”, “İllüziyalar və fiziki eksponatlar”, “Virtual reallıq”, “Sadə proqramlaşdırma (ibtidai sinif şagirdləri üçün)” məkanları ilə tanış olublar.

Əsas məqsəd şagirdlərə elmin çətin deyil, əksinə, maraqlı və əyləncəli olduğunu göstərmək olub.

STEAM İnnovasiya Mərkəzinin əməkdaşları tərəfindən şagirdlərdə maraq doğuran suallar cavablandırılıb.

“Heydər Əliyev İli”

# Mədəniyyətimizin böyük hamisi

Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.



Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları “Heydər Əliyev İli”nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (13)

### 1976-cı il 30 avqust

Heydər Əliyev Füzuli rayonunda Mədəniyyət evinin açılış mərasimində iştirak edib.

### 1976-cı il 18 noyabr

Xalq şairi Səməd Vurğunun anadan olmasının 70 illiyi münasibətilə yubiley gecəsi keçirilib. Heydər Əliyev yubiley gecəsində çıxış edib.

### 1976-cı il 14 dekabr

Heydər Əliyev Bakıda 18-ci Ordunun Döyüş Şöhrəti Muzeyinin açılışında çıxış edib. Krımın faşistlərdən azad edilməsində, iştirak etmişdi. Ordunun siyasi şöbəsinin rəisi sonralar SSRİ-nin rəhbəri vəzifəsinə yüksələn L.İ.Brejnev olmuşdu.

*“...18-ci Ordunun hünərlərinə həsr edilən muzeyin açılışı Bakı və bütün respublika zəhmətkeşlərinin ictimai-siyasi həyatında böyük hadisədir. Böyük Vətən müharibəsi ilə əlaqədar olan nə varsa, hamısı müqəddəsdir. 18-ci Ordunun döyüşçüləri faşist işğalçılarının darmadağın edilməsi kimi qəhrəmanlıq epopeyasına böyük xidmət göstərmişlər. Belə bir fakt bizi sevindirir ki, Qafqaz uğrunda vuruşmanın və müharibənin digər çarpışmalarının iştirakçıları, ölkənin bir sıra şəhərlərindən gəlmiş qonaqlar muzeyin açılışı mərasiminə toplaşmışlar...”.*

### 1976-cı il 24 dekabr

Heydər Əliyev Azərbaycan kinosunun yaranmasının 60 illiyinə həsr olunmuş təntənəli gecədə nitq söyləyib. Sovet dövründə Azərbaycan kinosunun yaranma tarixi 1916-cı ildən, “Neft və milyonlar səltənətində” adlı ilk Azərbaycan bədii filminin ekrana çıxdığı vaxtdan hesablanırdı.

### 1976-cı il 31 dekabr

Heydər Əliyev Bakı metropolitenin “Nizami” stansiyasının açılış mərasimində iştirak edib.

***

Tanınmış mədəniyyət, incəsənət, ədəbiyyat xadimlərinin fəaliyyəti 1976-cı ildə də dövlət tərəfindən yüksək qiymətləndirilirdi.

### 1976-cı il 28 aprel

Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin birgə qərarı ilə ədəbiyyat, incəsənət və arxitektura sahəsində 1976-cı il üzrə Azərbaycan SSR Dövlət mükafatlarının (iki ildən bir verilirdi) laureatları elan edilib.

Əməkdar incəsənət xadimi, şair Bəxtiyar Vahabzadə – “Leninlə söhbət” və “Muğam” poemaları üçün.

Şair Qabil İmamverdiyev – “Nəsimi” poeması üçün.

Yazıçı Maqsud İbrahimbəyov – “Bayquş gəldi” və “Bütün yaxşılıqlara görə ölüm” povestləri (rus dilində) üçün.

Heykəltəraş İbrahim Zeynalov, arxitektorlar Hənifə Ələsgərov, Ələsgər Hüseynov, tikinti işlərinin rəhbəri Əlövsət Əbdülrəhimov, mühəndis-konstruktor Yuri Dubov – Naxçıvanda V.İ.Lenin memorialı üçün.

Əməkdar incəsənət xadimi, bəstəkar Xəyyam Mirzəzadə – 2-ci simfoniya triptixi üçün.

Azərbaycan SSR EA-nın akademiki Məmmədcəfər Cəfərov – 1974-1975-ci illərdə yazılmış ədəbi-tənqidi əsərlər üçün.

### 1976-cı il 20 sentyabr

Müvəffəqiyyətli çıxışlarına və Bakı şəhəri zəhmətkeşlərinə nümunəvi xidmət etdiyinə görə Qırmızı Əmək Bayrağı ordenli Moskva Satira Teatrı Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilib.

### 1976-cı il 23 dekabr

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Azərbaycan kinosunun 60 illiyi ilə əlaqədar olaraq kinematoqrafiya sahəsi üzrə bir qrup şəxsə fəxri adlar verilib.

Xalq artisti – Muxtar Dadaşov (kinorejissor), Həsən Seyidbəyli (ssenarist, kinorejissor), Tofiq Tağızadə (kinorejissor).

Əməkdar incəsənət xadimi – İsa Hüseynov (ssenarist), Rüstəm İbrahimbəyov (ssenarist), Rasim İsmayılov (operator), Eldar Quliyev (rejissor), Şamil Mahmudbəyov (rejissor), Anar Rzayev (ssenarist).

Əməkdar artist – Şahmar Ələkbərov, Valentina Aslanova, Rasim Balayev, Tofiq Mirzəyev.

Əməkdar rəssam – Nadir Zeynalov, Kamil Nəcəfzadə, Məmmədağa Hüseynov.

Əməkdar mühəndis – Ağahüseyn Kərimov, Əziz Şeyxov (“Azərbaycanfilm” kinostudiyasının səs operatorları).

Əməkdar mədəniyyət işçisi – Cəmil Əlibəyov (“Azərbaycanfilm” kinostudiyasının direktoru), Gita Besantina (“Vətən” kinoteatrının direktoru), Güllər İmamova (Qax rayonu kino birliyinin direktoru), Vladimir Konyagin (kinooperator).

Həmçinin Azərbaycan kinosunun 60 illiyi ilə əlaqədar olaraq bir qrup şəxs Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilib. Təltif olunanlar arasında “Fətəli xan” filminə (1947) quruluş vermiş SSRİ Xalq artisti, “Mosfilm”in rejissoru Yefim Dziqan, SSRİ Xalq artisti, “Lenfilm”in rejissoru İosif Xeyfits (“Bakının işıqları” filmi), SSRİ Xalq artisti, “Mosfilm”in rejissoru Əjdər İbrahimov, Əməkdar incəsənət xadimləri, kinooperatorlar Arif Nərimanbəyov, Rasim Ocaqov, Xalq artisti, kinorejissor Rza Təhmasib, yerlərdə fəaliyyət göstərən kinomexanik, səyyar kinomexanik-sürücü kimi sıravi kino işçiləri də vardı.

### 1976-cı il 29 dekabr

Azərbaycan sovet ədəbiyyatının inkişafında xidmətlərinə görə və anadan olmasının 50 illiyi ilə əlaqədar olaraq tənqidçi, ədəbiyyatşünas Həbib Babayev Azərbaycan SSR Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilib.

**Hazırladı: V.Orxan**

***(davamı var)***

№13 (1982)
17 fevral 2023
www.medeniyyet.az

# Zəngəzur Azərbaycanın ayrılmaz parçasıdır

## 1919-cu ilin fevralında "Azərbaycan" qəzeti nədən yazırdı?

Xəbər verdiyimiz kimi, ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə nəşri həyata keçirilən Cümhuriyyət dövrü "Azərbaycan" qəzetinin (1918-1920) tam külliyyatının V cildi bu günlərdə çapdan çıxıb. V cild qəzetin 1919-cu il fevral ayı üzrə nüsxələrini – 103-125-ci nömrələri əhatə edir. Qəzetin mətnlərini filologiya üzrə fəlsəfə doktoru Mehdi Gəncəli və filoloq, tərcüməçi Azad Ağaoğlu transliterasiya edib. Ayrı-ayrı sözlərin müasir Azərbaycan dilində qarşılığı böyük mötərizədə verilib.



Cildi vərəqlədikcə o dövrdə Azərbaycandakı ictimai-siyasi vəziyyət haqqında geniş təsəvvür formalaşır. Diqqətçəkən materiallardan biri Cümhuriyyət hökumətində xarici işlər nazirini əvəz edən Ədil xan Ziyadxanovun İrəvana, Ermənistan hökumətinin xariciyyə nazirinə ünvanladığı 31 yanvar tarixli, 176 nömrəli teleqrafıdır. Teleqrafın mətni qəzetin 1919-cu il 2 fevral tarixli 103-cü nömrəsində "Azərbaycan və Ermənistan" sərlövhəsilə dərc edilib. Teleqraf Azərbaycan hökumətinin Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını xüsusi bir general-qubernatorluğa ayırmasına qarşı çıxan Ermənistan hökumətinə cavabıdır.

Həmin cavabın mətni bu gün də aktualdır: "Azərbaycan Cümhuriyyətinin Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur uyezdlərini müvəqqət general-qubernatorluğa ayırması qərarına görə sizin hökumətinizin protestosu əsassızdır. Çünki məzkur [adıçəkilən] qəzalar Azərbaycanın ayrılmaz parçalarıdır. Azərbaycan hökuməti ali idarə qanununca öz torpağında olan əhalisinin bilafərqi-millətü məzhəb [millət və din fərqi olmadan] həyatını, namusunu və malını məsuliyyətsiz adamların keyfəmayeşasından [özbaşınalığından] mühafizə etməsi bir tək hüquqi deyil, hətta mənəvi vəzifəsidir. Buna görə, bizim hökumətimizin məzkur qəzalara general-qubernator təyin etməsi Ermənistan hökumətinin hüquqi-mülkiyyəsinə təcavüz deyildir. Biləks [əksinə] sizin hökumətinizin bu münasibətlə protesto etməsi bizim daxili işlərimizə müdaxilə etmək təşəbbüsü olmaq üzrə haqqi-hakimiyyətimizə təcavüz deməkdir". (N 103, 2 fevral).

### "Ermənistanın Qarabağa ümid etməsi ibtidai məntiqə sığmaz bir röyadır"

Azərbaycanın əzəli torpağı olan Qarabağla bağlı dərc edilən yazılarda ermənilərin əsassız iddiaları onların öz mənbələrinə istinadla ifşa edilirdi. Əli Yusif "Məqsədləri nədir?" sərlövhəli məqalədə yazırdı: "Bugünlərdə Ermənistan hökuməti namından [adından] Ermənistan xariciyyə naziri Tiqranyanın hökumətimizə çəkdiyi protesto teleqramı zənnimcə, hamını təəccübləndirsə gərəkdir. Ələlxüsus teleqramın son cümləsindəki "Ermənistanın ərazi hüququna təcavüz" ibarəsi təəccüb deyil, heyrətimizə mövcib [heyrətimizə səbəb] olur. Məsələ yenə qarabəxtli Qarabağın məsələsidir. Nüfusca [əhalinin sayına görə] müsəlman əhalisi erməni əhalisindən bir neçə kərə artıq olduğunu erməni statistikçiləri də etiraf etdiyi bir halda, mövqeyi-coğrafisi ilə Azərbaycanın təbii bir sərhədi olduğu göz qabağında ikən və indiki Azərbaycanı təşkil edən xanlıqların içində Qarabağ xanlığı tarixdə ən məşhurlarındanədd [hesab] olunarkən, bu gün erməni milləti və onun min dürlü bəla və məşəqqətlə həqqi-istiqlal qazanmış hökuməti yenə də gözlərini Qarabağdan çəkmək istəməyir və oranı idarə etmək üçün olunan təşəbbüslərə qarşı protesto edir. Bu cəsarətə artıq siyasi protesto deyil, başqa dövlətin daxili idarəsinə qarışmaq namı verilməlidir ki, buna da heç bir müstəqil hökumət təhəmmül edəmməz [dözüm nümayiş etdirə bilməz]. Əlǝlxüsus Ermənistan kimi yeni törəmiş, gələcək mövcudiyyəti əsaslı şübhələri mövcib olaraq, ərazi hüdudu bir işareyi-sualdan (?) ibarət olan bir dövlət, qonşusunun daxili hərəkatını xaricdən tənqidə qalxışması qətiyyən lüzumsuzdur. Ermənistan böylə bir təşəbbüsdə bulunarsa, açıqdan-açığa "Nə mən yaşayacağam, nə də səni yaşamağa qoyacağam" demiş olur. Ermənistanın Qarabağa ümid etməsi, deyil "samoopredeleniye" [öz müqəddəratını təyin etmək] əsasına, hətta ən ibtidai məntiqə belə sığmaz bir röyadır ki, bu röya təbir edirlərsə, nəticədə yenə dəhşətli mənzərələr, yenə mədəniyyət və ülfət yerinə xarabazarlar görünər". (N 104, 3 fevral).

Həmin dövrdə İrəvanı qana boyayan daşnak vəhşiliyi barədə yazılar, imdad diləyərək Bakıya qədər gəlib çıxan xalq nümayəndələrinin qəzetə verdikləri müsahibələrdə erməni qaniçənliyinin miqyası aydın olur. "İrəvan: erməni-müsəlman məsələsi" sərlövhəli məqalədə qeyd olunurdu ki, "İrəvan quberniyasının Novo-Bayəzid mahalında ermənilər içində qalıb, erməni hökumətinə təslim olmuş olan 35 para müsəlman kəndlərinin camaatı fəcianə [faciəvi] bir hal keçirməkdədirlər. Yolları qalın qar təbəqələri basdığı üçün bir tərəfə qaçammayırlar. Binəvaların səsləri və harayları da bir yana çatmayır...

Müxatibimiz [həmsöhbətimiz, söz danışan şəxs] burada dərin suzişli [yanıqlı] bir ah çəkəndən sonra məhzun [hüznlü] bir hal ilə sözünə davam etdi: "Daşkənd sakinlərindən bir kişi namusunu saxlamaq üçün arvadını özgə bir kəndə qaçırmaqla, erməni əsgərlərinin təcavüzündən qurtara bilmişdi. Çünki nizami erməni əsgərləri camaatdan xərc yığdıqları əsnada, müsəlman qızlarına və arvadlarına da təcavüz etməkdədirlər". (N 104, 3 fevral).

### Müqəddəratını təyin eyləmək Azərbaycan xalqının müqəddəs haqqıdır

Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasından doqquz ay keçmişdi, amma Rusiyapərəst qüvvələr xalqın müstəqilliyi ilə barışmırdılar. Cümhuriyyətin banisi M.Ə.Rəsulzadənin "Məclisi-Məbusan və müxaliflər" adlı məqaləsi dövrün mürəkkəbliyindən xəbər verir: "Azərbaycanın siyasi vəziyyəti nə qədər ki, müəyyən deyildi, türklərdən olmayan bütün siyasi firqələr, bolşevik ruhlu menşevikindən tutub monarxist ruhlu kadetinə qədər, Azərbaycan istiqlalı ilə Azərbaycan Parlamanına qarşı barışmaz bir vəziyyət almışlardı. Onlar bu vəziyyətləri ilə Azərbaycan türklərini bir növ mühasirəyə almış, təslimə məcbur etmək istəmişlərdi.

Zənn edirlərdi ki, xaricdən gəlmə Müttəfiqlər qüvvəti də onlara kömək olacaq, ağıllarınca türklər tərəfindən qurulmuş olan Azərbaycan hökumətini bir deyəndə atacaqlardır.

Azərbaycan türkü ilə bərabər, bu türkün ruhundan doğan idealları tərvic edən [ideallara rəvac verən], onun yolu ilə gedən Azərbaycan xadimləri isə qəflətən üzərlərinə atılan qüvvətlərə qarşı mətanət göstərdilər, durdular. Azərbaycan fikrinin "İstanbuldan" deyil, Bakıdan doğmuş olduğunu isbat etdilər. Bu sübutla hər kəsdən əvvəl bitərəf bir qüvvət olması həsəbilə [səbəbindən] ilk əvvəl ingilis komandanlığı qane oldu. Onun bu qənaəti Azərbaycanın daxili müxaliflərini düşündürdü". (N 104, 3 fevral).

M.Ə.Rəsulzadə qətiyyətlə bildirirdi ki, "Rusiyadan ayrılmaq, Rusiyaya qoşulmaq və yaxud başqa bir şəkil ilə kəndi müqəddəratını təyin eyləmək haqqı Azərbaycan xalqının müqəddəs bir haqqıdır.

Bu haqqı ona təbiət bəxş eyləmiş. Bu haqqı o nə kadetlərin ala gözlərinə, nə də sosialistlərin yağlı dillərinə fəda edəmməz!

Müxaliflər bunu bilsinlər, qulaqlarına sırğa etsinlər və böyləcə Azərbaycan istiqlaliyyəti əmri-vaqesinin qulami-halqa bəguşu [qulağı sırğalı qulu] olaraq Parlamana buyursunlar.

Başqa məsələlərdə keyifləri istədiyi müxalifəti etsin, tənqidatda bulunsun, təbliğatda olsunlar. O, onların haqqı və vəzifələridir.

Biz heç bir zaman onların Parlaman firqələrinin müvafiqləri [müxalif olmayanları, hökumətdən yana olanları] cərgəsində oturacaqlarını zatən təsəvvür eyləməmişdik". (N 104, 3 fevral).

### Ticarət dəftərləri türkcə olarsa...

"Azərbaycan" qəzeti ölkə həyatının bütün sahələrini diqqətdə saxlayırdı. Kitabı vərəqlədikcə 1919-cu ilin fevralında müxtəlif sahələr üzrə problemlər göz önündə canlanır. Pedaqoq, publisist Fərhad Ağazadə "Türkcə dəftərdarlıq" [mühasibat]" məqaləsində çox mühüm məsələlərə toxunub: "Aya [bəs], millətin əsası nədən ibarətdir? Millətin əsası zəki üləmanın [alimlərin] elmi ilə, ürəfanın mərifəti ilə, ərbabi-fənnin hünəri ilə, zənginlərin malı ilə, əmələnin zəhməti ilə, əkinçinin əməyi ilə və tamam əhalinin də canı və fədakarlığı ilə sabit və bərqərar olar.

İştə hər zəhmətkeş, hər sənətkar özünəməxsus kəsbkarlığı dalınca gedərkən məşğuliyyətindən millətinə xeyir və ya zərər yetişə biləcəyini qabaqca düşünməlidir. Tacirlərimiz düşünsünlər ki, bahalığın ağırlığı millətin füqərası üçün böyük bir cəhənnəm qapısıdır. Bugünkü müsri [yoluxucu] naxoşluqlar ki, həm varlıları, həm də yoxsulları bərabərcə qırıb-çatır, bahalığın bəlası deyilmi? Məmurların rüşvətxorluğu hökumətin əsasına böyük bir sədəmədir [zərbədir]. Bunu rüşvət alanlarla bərabər rüşvət verənlər də düşünsünlər. Əkinçilər, fəhlələr anlasınlar ki, onların zəhməti və hümməti ilə vətənin övladı yaşayır, aclığın qabağı alınır. Bəs zəhmətlərini, hümmətlərini birə-beş, birə-on artırsınlar". (N 123, 26 fevral).

Türkcə saxlanılmış dəftərlərin rus məhkəmələrində qəbul olunmadığı xatırladılan məqalədə Cümhuriyyət hökumətində buna daha ehtiyac olmadığı üçün ticarət dəftərlərinin türkcə tərtib edilməsi tövsiyə edilir və bunun faydalı olacağına diqqət çəkilir: "Ticarət dəftərləri türkcə saxlanarsa, bunun millətə faydası çox olar:

**1)** Ticarətxanalarımız türkləşər, milliləşər.

**2)** Bir çox müsəlman dəftərdarları [mühasibləri] iş başına dəvət olunub, çörək və güzəran sahibi olarlar.

**3)** Bu olarsa, məhkəmələr də mürurizamanla [vaxt ötdükcə] milliləşməyə məcbur olarlar". (N 123, 26 fevral).

***

"Azərbaycan" qəzetinin 1919-cu il fevral saylarında mədəniyyət və incəsənət haqqında da materiallar dərc edilib. Qəzetdə teatr tamaşaları haqqında xəbərlər mütəmadi olaraq yer alıb.

ADA Universitetinin qəzetin külliyyatını bu şəkildə (toplu 20 cilddə nəzərdə tutulub) ərsəyə gətirməsi ali təhsil ocağının xalqımızın tarixinə, mədəniyyətinə və gələcəyinə nə qədər böyük bir xidmət etdiyinə daha bir nümunədir.

# Qarabağın kişi geyimləri

Azərbaycanın Qarabağ bölgəsi tarixdən günümüzə mədəni zənginlikləri ilə diqqəti cəlb edib. Ədəbiyyat, musiqi, maarifçilik və s. sahələrin inkişafı, təbii ki, insanların geyim mədəniyyətində də özünü göstərib. Geyim və bəzəklərin zənginliyi və özünəməxsusluğu xalqın yaradıcı əməyi, bilik və təcrübəsinə əsaslanır. Ənənəvi xalq geyim kompleksinin meydana gəlməsi həm də uzunsürən tarixi inkişaf prosesinin nəticəsi kimi təzahür edir.

XIX-XX əsrin əvvəllərində Qarabağ əhalisinin ənənəvi kişi geyimləri biçim üsuluna və tikiş texnikasına görə ümumazərbaycan, hətta ümumqafqaz səciyyəsi daşıyıb. Eyni zamanda məhəlli xüsusiyyətləri ilə seçilib. Ənənəvi kişi geyimləri alt və üst köynəyi, dizlik, şalvar, arxalıq, can arxalığı (canlıq, içlik, cılıtqa, pambıqlı) çuxa, kürk, yapıncı, eləcə də müxtəlif formalı və adlı baş və ayaq geyimlərindən ibarət olub.

Tarix elmləri doktoru Fəzail Vəliyev və tarix üzrə fəlsəfə doktoru Gülzadə Abdulovanın həmmüəllif olduqları "Qarabağ geyimləri" kitabında qeyd edilir ki, XIX əsrin 80-ci illərində Cəbrayıl qəzasının kişi geyimləri ağ və göy bezdən tikilən gödək alt köynək, bel yerində nifəsi olan dizlik, qış aylarında geyilən enli yun şalvar, üst köynək, onun üstündən geyilən arxalıq və üstündən geyilən çuxadan ibarət olub. Başlarına ilboyu qoyun dərisindən hazırlanan və çox da hündür olmayan konusvarı papaq qoyublar. Ayaqlarına gödək yun corab, kəl və ya öküz dərisindən hazırlanan çarıq geyiblər. Bərdə əhalisi-kişilər üçün dizə qədər çatan gödək çuxa, şalvar və corab (yun və yarımipəkdən) hazırlanıb. Daha sonra ləzgi şalından hazırlanan çuxa (çərkəzi çuxa), çuxanın altından pamazı, atlas, triko, lastik, məxmər və müxtəlif çit parçalardan tikilən arxalıq (gödək beşmet) tikilib. Əksər əhali başlarına qoyun dərisindən olan papaq, varlılar isə bahalı papaqlar qoyublar. Demək olar ki, bütün gənc bərdəlilər gümüş kəmər taxır, qocalar, mollalar və digər şəxslər müxtəlif parçalardan hazırlanan qara və ağ rəngli qurşaq gəzdirirdilər. Bu geyimlər gündəlik (iş paltarı) və boğçalıq (xeyir-şər paltarı) olmaqla iki dəstdən ibarət olub.



Boğçalıq paltarlar qiymətli parçalardan tikilir, geyim elementlərinin çoxluğuna, təzəliyinə və s. görə gündəlik geyimlərdən fərqlənirdi.

Forma müxtəlifliyi, parça materiallarının çeşidi, rəng çalarlarının əlvanlığı, eləcə də azərbaycanlı kişilərin peşə, zümrə (sosial təbəqə) və yaş mənsubiyyəti üst geyimlərində daha çox nəzərə çarpan xüsusiyyətlər daşıyıb. XIX əsr və XX əsrin əvvəllərində kişi üst paltarları beldə saxlanan və çiyinə geyilən olmaqla iki qrupa bölünüb. Birinci qrupa şalvar, ikinci qrupa isə üst köynəyi, can arxalığı, arxalıq, çuxa, kürk, yapıncı və s. daxil olub.

**Arxalıq.** Qarabağ tarixi-etnoqrafik bölgəsi üçün xarakterik olan arxalıq kübar ailələrin, mötəbər şəxslərin, varlıların geyim dəstində əsas yer tutub. Adətən döşüaçıq arxalığın altından "yaxalıq" və ya "döşlük" adlanan bir geyim də geyilib. Digər arxalıq tiplərindən fərqli olaraq, döşüaçıq arxalıq daha erkən yaranmış geyim tipi hesab olunur. XIX əsrin əvvəllərindən başlayaraq bu biçimli arxalıq xalq geyim kompleksinin tərkibinə daxil edilib.

**Çuxa.** Kişi geyim dəsti içərisində çuxa da mühüm yer tutub. Qarabağda bu geyim tipi bəzən "bəlgə" də adlanıb. Azərbaycan ərazisində çuxanın qədim geyim tipi olmasına "Kitabi-Dədə Qorqud" dastanında da rast gəlinir. Burada çuxanın "adi" və "doqquzlama çuxa" olmaqla iki forması haqqında məlumat verilir. Qarabağ geyimləri biçim üsuluna görə, ümumqafqaz səciyyəli olan çuxalar bir-birindən yalnız müəyyən lokal xüsusiyyətlərinə və adlarına görə fərqlənib. Çuxalar ətəyinin formasına görə "büzməli" (kəmərçin), "çinli" (kahlı) və "büzməliçinli", qol yerinin formasına görə isə "qoltuqlu" və "qoltuqsuz" olmaqla müxtəlif variantlarda mövcud olub. Qarabağ bölgəsi üçün isə daha xarakterik olanı oyma yaxalı çuxalar idi. Bundan başqa, ətəyi qısa "vəznəli çuxa" ("çərkəzi çuxa") da xalqın geyim dəstində mühüm yer tutub.

**Kürk.** Qarabağın mövsümi səciyyəli kişi geyimləri arasında aşılı qoyun dərisindən tikilən kürk də əhəmiyyətli yer tutub. Azərbaycanda kürkün müxtəlif biçim üsulu ilə hazırlanan "kaval kürk" və "üzlü kürk" olub. Qarabağda bunun "geyinmə kürk" ("çoban kürkü") kimi iki tipi geniş yayılıb.

***

Qarabağın kişi baş geyimləri də formasına, materialına, geymə tərzinə, dəyərinə və hətta rənginə görə fərqlənib. Bu bölgəmizdə papaqçılıq sənəti kifayət qədər inkişaf edib. Xammalın aşılanmasından başlayaraq biçmə və tikmə də daxil olmaqla, hazır papaqların satışına qədər bütün istehsal prosesini papaqçı usta və onun şagirdləri həyata keçiriblər.

Mənbədə göstərilir ki, XIX əsrin sonlarında papaqçı Sadıq Şuşanın məşhur ustalarından olub. Oğlu Məşədi Cümşüd atasının sənətinin sirlərinə yiyələnərək dövrünün mahir papaqçılarından biri kimi tanınıb. O, 1918-ci ildə ermənilər Şuşada azərbaycanlılara qarşı qırğın törədərkən ailəsi ilə birlikdə Ağdama köçüb. Həmin ərəfədə Osmanlı dövlətindən Azərbaycana kömək üçün gələn Qafqaz İslam Ordusunun komandanı Nuru paşadan sifariş alıb. Bir gecəyə tikdiyi papaq gözəlliyi ilə türk paşasını heyran edib. Nuru paşa zəhmət haqqı olaraq ona Ağdamda 165 sotluq torpaq sahəsi ayırıb. Vaxtilə Məşədi Cümşüdün yurd saldığı həmin ərazi "Papaqçılar məhəlləsi" adlanıb. Ötən əsrin birinci yarısında görkəmli xalçaçı-rəssam Lətif Kərimovun atası Hüseyn kişi, digər tanınmış ustalar Həsən, Şəmsəddin, Adışirin, Əli, Fərrux Qarabağın məşhur papaqçıları olublar.

**Başlıq.** Kişi baş geyimlərinin bir növü də "başlıq" adlanıb. Onu adətən soyuq havalarda uzaq səfərə çıxan və dağ şəraitində yaşayanlar papağın üstündən geyiblər. Başlıq daha çox sıx toxunmuş yun parçadan (şaldan), mahuddan, ən qiymətlisi isə dəvə yunundan hazırlanıb.

**Çalma və əmmamə.** Qeyd olunan dövrdə Qarabağda baş geyimlərinin bir qismini də çalma və əmmamə təşkil edib. Çalmadan bir qayda olaraq, nüfuzlu elm adamları, şairlər, mötəbər şəxslər və dövlət qulluqçuları istifadə edib. Əmmaməni isə daha çox ruhanilər (molla, əfəndi, seyid, müfti və b.) geyiblər. Əmmamə başa kiçik papaq-araqçın qoyduqdan sonra xüsusi əndazə ilə sarınıb. Əmmamələr parçasının rənginə, ölçüsünə və başa dolama qaydalarına görə bir-birindən fərqlənib. Azərbaycanlı din xadimləri əsasən ipəkdən, hümayun və batist ağından hazırlanan əmmamə qoyublar. Qeyri-müsəlman din xadimləri isə qara, göy, yaxud da sarı rəngli əmmaməyə üstünlük veriblər. Azərbaycanda ali ruhani zümrələri arasında yaşıl əmmamə də dəbdə olub.

***



Qarabağ bölgəsinin ayaq geyimlərinə gəlincə, XIX əsrin sonlarına doğru rus və Avropa fasonlu çəkmələr şəhər əhalisinin məişətinə sürətlə daxil olduğundan yerli ayaqqabıları sıxışdırır. Şəhər əhalisinin əksəriyyətinin, kənd əhalisinin isə varlı zümrələrinin ayaq geyimləri içərisində çust, məst və s. də mühüm yer tutub. Adətən, yumşaq aşılanmış dəridən altlıqsız hazırlanan məstin üstündən gəzməyə çıxan zaman başmaq geyilib. Dabanı açıq olan başmaqdan fərqli olaraq, çustun daban çevrəsi bağlı idi.

XIX əsrin sonu – XX əsrin əvvəllərindən başlayaraq xalqın geyim dəstinə rus və Avropa ayaq geyimlərinin tədriclə daxil olması həm kişi, həm də qadın ayaq geyimi olan qaloşun kütləvi istehsalı çarıq, patava, dolaq, çust, başmaq, məst və s. kimi ayaq geyimlərini sıxışdıraraq məişətdən çıxarıb. Ayaq geyimlərində keyfiyyət dəyişiklikləri əmələ gəlib.

**S.Fərəcov**

# Orta əsrlər ərəb coğrafiyaşünasının kitabında Qafqaz və Azərbaycan

Milli Azərbaycan Tarixi Muzeyinin şöbə müdiri tarix elmləri doktoru Nərgiz Əliyevanın "Omonimlər lüğəti"ndə Qafqaz və Azərbaycan" adlı kitabı nəşr olunub.

Muzeydən bildirilib ki, kitab Orta əsrlər ərəb coğrafiyaşünası Yaqut əl-Həməvinin "Formasına görə müştərək, yerinə görə fərqlənən adlar kitabı" ("Kitab əl-müştərik vad`an va-l-muftariq suk`an") əsasında hazırlanıb. Nəşrin elmi redaktoru muzeyin baş direktoru akademik Nailə Vəlixanlıdır.

Kitabda Orta əsrlər Azərbaycanında və Qafqazda müxtəlif ərazilərdə verilən eyniadlı toponimlərin fərqli cəhətləri göstərilib və dəqiqləşdirilib. Həmçinin nəşrdə görkəmli şəxsiyyətlərin eyniadlı yerlərdən hansına mənsub olmasına aid məlumatlar təqdim edilib.

Qeyd edək ki, tarix elmləri doktoru Nərgiz Əliyevanın "Azərbaycanda islam mədəniyyəti – VII- XII əsrlər" bu günlərdə Qətərin paytaxtı Dohada Dünya Müsəlman Üləmaları Liqasının baş katibi professor Əli Muhyiddin əl-Qaradağiyə təqdim olunub. Kitabı ona Azərbaycanın Qətərdəki səfiri Mahir Əliyev təqdim edib. Baş katib kitabı məmnunluqla qəbul edib. Nəşrin Azərbaycan-ərəb elmi-mədəni əlaqələrinə töhfə olduğu bildirilib.

# "Qırın zəncirləri, keçin sərhədi..."

**Qəhrəmanların özü və sözü**

"Qəhrəmanların özü və sözü" rubrikasında qəlbində Vətən sevdasını poetik çalara bürüb misralara düzən igid oğullarımızı tanıtmağa davam edirik. Bu dəfə 44 günlük Vətən müharibəsinin şəhid əsgəri Xəyyam Hüseynovu yada salırıq.

Xəyyam Hüseyn oğlu Hüseynov 1996-cı il iyulun 11-də Göyçay şəhərində anadan olub. Orta məktəbi əla qiymətlərlə oxuyub. Təhsilini başa vurduqdan sonra pedaqoji istiqamət üzrə ali məktəbə qəbul olunsa da, özünü bu sahədə görmədiyindən qərarını dəyişir.

Hərbi xidmətə yollanan Xəyyam "N" saylı hərbi hissədə düşmənlə üzbəüz, çətin şəraitdə əsgəri borcunu ödəyir. Komandirlərin tapşırıqlarını vaxtında, dəqiq və məsuliyyətlə yerinə yetirir. Nümunəvi xidmətinə görə müxtəlif təltiflərə də layiq görülür. Beləcə, əsgərliyini uğurla, alın açıqlığı ilə başa vurur. Ancaq onun ən dəyərli mükafatı hələ qarşıda idi...

İncəsənətə böyük maraq göstərən, hətta rejissor olmaq istəyən Xəyyam evlərinə qayıdandan bir müddət sonra mənfur düşmən ənənəvi qara niyyətini yenidən ortaya qoyur. 2020-ci ilin iyulunda cəbhənin Tovuz rayonu istiqamətində düşmən genişmiqyaslı təxribat törədir. Azərbaycan Ordusu ilk dəfə ali rütbəli zabitini – general-mayor Polad Həşimovu itirir. Polad paşanın şəhadəti minlərlə gəncin yağıya qarşı intiqam hissini alovlandırır...

Xəyyam Hüseynov da bütün sənət, yaradıcılıq arzularından vaz keçərək Səfərbərlik



və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Göyçay rayon şöbəsinə gedərək adını könüllülər siyahısına yazdırır. Nəhayət, əsir yurdlarımızın xilas günü yetişir və o da arzusuna çatır. Ordumuz sentyabrın 27-də sarsıdıcı əks-hücum əməliyyatı başladanda Xəyyam Hüseynov artıq ön sıralarda yerini almışdı. Hətta o, döyüşdən öncəki qısamüddətlik hərbi təlim zamanı atası ilə son telefon danışığında sanki şəhidlik zirvəsinə ucalacağı ürəyinə dammışdı. Ona görə də atasından halallıq istəyib və iki arzusunun yerinə yetirilməsini diləyib. Bunlardan birincisi, bacısının övladına öz adının verilməsi, ikincisi isə, şeirlərinin kitab şəklində çap edilməsi idi...

Xəyyam Hüseynovun yer aldığı qrup Ağdərə istiqamətində gərgin döyüşlərə başlayır. Xəyyam ilk döyüş tapşırığını uğurla yerinə yetirir. İrəli getmək üçün komandanlıqdan ikinci tapşırıq alınır. Onlar döyüşə atılırlar və düşmən gülləsinə tuş gələn Xəyyam Vətən müharibəsinin ilk günündəcə şəhadətə yüksəlir. Onun döyüşə yollanan vaxt çəkilən bir videosu var. Bu video onun və digər gənclərimizin Vətən torpağının xilası uğrunda ölümə sevinə-sevinə getdiklərini göstərir. O zaman Xəyyamın son sözü "Hər şey Vətən üçün!" olmuşdu.

Doğulduğu Göyçay şəhərində torpağa tapşırılan Xəyyam Hüseynov Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, ölümündən sonra "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

Xəyyam Hüseynovdan cəsurluq nişanəsi ilə yanaşı, vətənsevərlik ruhlu şeirlər də yadigar qalıb. Onun "Qoy mən ölüm bu torpaq üçün" şeiri "İgidlərin sözü" almanaxında yer alıb. Həmin şeiri təqdim edirik:

*Qoy mən ölüm bu torpaq üçün*
*Siz hələ bir az da səbir edin, dözün.*
*Anam mənsiz qalsın, bacım qardaşsız,*
*Sonra da deyin ki, "Vətən sağ olsun!".*

*Əgər yumuruqsa, qanı-qan ilə,*
*Arxamca rəhmət də diləməyin heç.*
*Mən ki öz borcumu özüm vermişəm,*
*Ağlayıb göz yaşı tökməyin də heç.*

*Adıma şeirlər, nəğmə yazmayın,*
*Ruhumu ovutmaz beş-altı kəlmə.*
*Qırın zəncirləri, keçin sərhədi,*
*Ən böyük rəhmətim bu olar, məncə.*

**Hazırladı: L.Azəri**

# AMEA daxilində struktur islahatları davam edir

## Folklor İnstitutunun "Qorqud" ansamblının aqibəti necə olacaq?



AMEA-nın elmi müəssisələrində struktur islahatları davam edir. AMEA Rəyasət Heyətinin fevralın 14-də keçirilən iclasında bununla bağlı bir neçə məsələyə baxılıb.

İclasda çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli bildirib ki, akademiyada idarəetmənin təkmilləşdirilməsi, paralel qurumların aradan qaldırılması, elmi istiqamətlər üzrə mütəxəssislərin vahid mərkəzdə cəmləşdirilməsi məqsədilə struktur islahatları aparılır.

İclasda Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Erkən yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin ləğv edilməsi, Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin bazasında Erkən realizm və yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin yaradılması haqqında qərar qəbul olunub.

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Kitabxana və elmi informasiya və Biblioqrafiyaşünaslıq şöbələrinin bazasında Kitabxana və biblioqrafiyaşünaslıq şöbəsi yaradılıb, Şərq ölkələri türkdilli əlyazmaların tədqiqi şöbəsi isə Türkdilli əlyazmaların tədqiqi şöbəsi adlandırılıb.

Bundan əlavə, AMEA Rəyasət Heyətinin 2023-cü il 16 yanvar tarixli qərarına əsasən, Folklor İnstitutunun Musiqi folkloru şöbəsi ləğv edildiyi üçün institutun Elmi şurasının qərarı ilə "Qorqud" ansamblının da fəaliyyətinə xitam verilib.

Eyni zamanda müvafiq elmi-tədqiqat institutlarının təqdimatları nəzərə alınaraq AMEA-nın Bakıxanov adına Tarix İnstitutunun Atropatena-Albaniya (Qafqaz) tarixi şöbəsinin Azərbaycanın eramızdan əvvəl IV – eramızın VII əsrinin ortaları tarixi şöbəsi, Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunda Son Neolit və Xalkolit (Eneolit) dövrü arxeologiyası şöbəsinin isə Neolit-Eneolit dövrü arxeologiyası adlandırılması barədə qərar qəbul olunub.

Qeyd edək ki, Folklor İnstitutunun Musiqi folkloru şöbəsi Memarlıq və İncəsənət İnstitutunun tərkibinə verilib və hazırda əməkdaşlar orada fəaliyyətlərini davam etdirirlər.

"Qorqud" ansamblının fəaliyyətinə gəlincə isə, ansamblın bədii rəhbəri Əməkdar artist Nuriyyə Hüseynova bildirdi ki, şöbə digər institutun tərkibinə verilsə də, bizim kollektivin aqibəti ilə bağlı məsələyə hələlik tam aydınlıq gətirilməyib. Bu barədə yaxın günlərdə dəqiq məlumat veriləcək.

Qeyd edək ki, Folklor İnstitutunun "Qorqud" ansamblı qədim musiqi alətlərinin, unudulmaqda olan xalq mahnılarının, meydan tamaşalarının rekonstruksiyası və xalqa təqdim edilməsi istiqamətində fəaliyyət göstərir. Kollektiv 1976-2014-cü illərdə "İrs" folklor ansamblı adı altında fəaliyyət göstərib. Ansamblın yaradıcıları bəstəkar Rəşid Nəsiboğlu və Əməkdar mədəniyyət işçisi Sidqi Mustafayev olub. 2014-cü ildən Əməkdar artisti xanəndə Nuriyyə Hüseynovanın rəhbərliyi ilə "Qorqud" adı altında da fəaliyyətini davam etdirir.

**Lalə**

## "Əlyazmalar yanmır" və "Elmi əsərlər" – yeni saylarda nələr var?

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elmi şurasının qərarı ilə "Əlyazmalar yanmır" və "Elmi əsərlər" jurnallarının növbəti sayları çapdan çıxıb.

İnstitutdan bildirilib ki, "Əlyazmalar yanmır" elmi məqalələr toplusunda "Nizami Gəncəvi poeziyasında təbiət təsvirlərinin ictimai-poetik tutumu", "Dilçilikdə diskurs və diskursiv təhlil anlayışı", "Müxtəsər əl-Qüduri"nin dünya kitabxanalarındakı əlyazma nüsxələri", "Xurşidbanu Natəvanın şeirləri cünglərdə" və s. mövzularda məqalələr dərc olunub.

"Elmi əsərlər" jurnalının yeni sayında isə ədəbiyyatşünaslıq, mətnşünaslıq, mənbəşünaslıq, tarix, kitabxanaşünaslıq, kitabşünaslıq, biblioqrafiyaşünaslıq sahəsində "Nizami Gəncəvi sənətində doğma mühit və təbiət", "Dağlar oğlu Dədə Şəmşir", "Qarabağ mövzusu Qacarlar tarixində", "Fərhad Mirzə Qacarın "Səfərnamə" əsərinin təhlili", "Müasir cəmiyyətdə kitabxana-informasiya fəaliyyətinin menecmenti" və s. məqalələr yer alıb.

Qeyd edək ki, hər iki jurnal Ali Attestasiya Komissiyasının "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı"na daxildir.

# İnternet asılılığı uşaq psixologiyasına mənfi təsir göstərir

## DST kompüter oyunlarından asılılığı psixi pozğunluq hesab edir

Virtual məkanda, əsasən də sosial mediada son zamanlar arzuolunmaz mənəvi və əxlaqi keyfiyyətləri aşılayan ziyanlı kontentlərin (işgəncə, qəddarlıq səhnələri, narkotik, spirtli içkilər, vandalizm, pis vərdişlərin təbliğatı və s.) böyük sürətlə artması uşaqlar üçün ciddi təhlükə mənbəyinə çevrilməkdədir.

İnternet asılılığı problemləri və yaşa uyğun olmayan məlumatlar uşaq psixologiyasına, tərbiyəsinə və davranışına mənfi təsir edir. Bədniyyətlilər və kibercinayətkarlar tərəfindən uşaqlara hədə-qorxu, təcavüz kimi informasiya-psixoloji təsirlərin göstərilməsi halları informasiya təhlükəsizliyi ilə bağlı ciddi problemlər yaradır. Bu problemlər həm texnoloji, həm də sosial məsələlərin həllini tələb edir.

İnformasiya Texnologiyaları İnstitutunun növbəti elmi seminarı bu mövzuya həsr olunub. Mövzu üzrə tədqiqat aparan institutun baş mütəxəssisi Sabirə Ocaqverdiyeva bildirib ki, hazırda uşaqların internetdən təhlükəsiz istifadəsi problemlərinin həllinə yönəlmiş çoxlu sayda proqram təminatı və təhlükəsizlik sistemləri var, əksər ölkələrdə bu istiqamətdə milli səviyyədə müxtəlif tədbirlər görülür. Lakin bu tədbirlərə baxmayaraq virtual şəbəkədə uşaqların təhlükəsizliyinin təmin edilməsi üçün daha müasir texnologiyaların və təhlükəsizlik mexanizmlərinin yaradılmasına böyük ehtiyac vardır.

Tədqiqatçı qeyd edib ki, dissertasiya işi çərçivəsində "təhlükəsiz internetlə" əlaqədar dünya təcrübəsi, beynəlxalq proqramlar, inkişaf etmiş ölkələrdə qəbul edilmiş qanunlar araşdırılıb, uşaqların internet mühitində qarşılaşdığı təhlükələrlə əlaqəli risklər və onların yaratdığı fəsadlar analiz olunub və təhlükələrin təsnifatı verilib. Uşaqların internet mühitində təhlükəsizliyinin təmin edilməsi üçün ziyanlı kontentin azyaşlı auditoriyaya təqdim olunmasının qarşısının alınması məqsədilə milli intellektual sistemin konseptual modeli işlənilib.



Tədqiqat işi barədə fikirlərini bölüşən institutun baş direktoru akademik Rasim Əliquliyev bildirib ki, hər bir informasiya inqilabı nəticəsində meydana çıxan yeniliklərlə əlaqədar uşaqlarda müəyyən asılılıqlar yaranır. O, 2022-ci ildə Dünya Səhiyyə Təşkilatının kompüter oyunlarından asılılığı xəstəlik, psixi pozğunluğun bir növü kimi rəsmən tanıdığını nəzərə çatdırıb. Qeyd edib ki, yalnız təlim keçmiş tibb mütəxəssisləri kompüter oyunlarından asılılığı müəyyən edə bilər. Bu baxımdan bütün ölkələrdə kompüterdən asılılıqla mübarizə məqsədilə klinikalarda müvafiq şöbələrin yaradılması və bu istiqamətdə kadr hazırlığı məsələləri diqqət mərkəzində saxlanılır.

Akademik ölkəmizdə peşəkar mütəxəssislərin fəaliyyət göstərdiyi "Milli Təhlükəsiz İnternet Mərkəzi"nin yaradılmasının uşaqların virtual mühitdə ziyanlı kontentlərdən qorunması baxımından əhəmiyyətli olduğunu bildirib. Qeyd edib ki, tədqiqat işində belə bir mərkəzin yaradılması ilə bağlı beynəlxalq təcrübəyə əsaslanan konseptual baxışlar və təkliflər irəli sürülüb.

## Xatirə təqvimi 18-20 fevral

### Azərbaycan

**18 fevral 1201** – Böyük riyaziyyatçı, astronom və filosof Nəsirəddin Məhəmməd ibn Həsən Tusi (1201 – 23.6.1274) Həmədan şəhərində anadan olub. Tusinin yaratdığı Marağa rəsədxanası uzun illər Şərqin mötəbər elm mərkəzlərindən olub. "Əxlaqi-nasir" etik traktatı, fəlsəfəyə dair əsərlərin müəllifidir.

**18 fevral 1924** – Əməkdar artist Osman İsmayıl oğlu Hacıbəyov (1924-1979) Şuşa şəhərində doğulub. Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru olub. Üzeyir Hacıbəylinin əmisi nəvəsidir.

**18 fevral 1925** – Publisist, tərcüməçi Hacı Əliheydər oğlu Hacıyev (1925-2008) anadan olub. Uzun illər Azərbaycan Jurnalistlər Birliyinə rəhbərlik edib.

**18 fevral 1934** – Yazıçı-dramaturq, publisist Şamil Xurşud (Şamil Xurşud oğlu Fərzəliyev; 1934-1986) Ucar rayonunda (əslən Ermənistanın Sisyan rayonunun Ağudi kəndindəndir) anadan olub. "Azərbaycan gəncləri" qəzetinin redaktoru, "Kirpi" jurnalının baş redaktoru işləyib. Əsərləri: "Ağaclar kəsilmədi", "Naxırçı çörəyi", "Yolayrıcında" və s.

**18 fevral 1947** – Əməkdar rəssam Ənvər Vahid oğlu Qarayev (1947 – 29.1.2011) Şəkidə anadan olub. Dekorativ-tətbiqi sənət, xalça, batika, parça üzərində tikmə texnikasının mahir ustası idi.

**18 fevral 2009** – Bakıda "İslam mədəniyyətinin paytaxtı – 2009" ilinin açılış mərasimi keçirilib. Bakı şəhəri İslam ölkələri elm, təhsil və mədəniyyət təşkilatı – İCESCO-nun 2007-ci ildə qəbul etdiyi qərara əsasən "İslam mədəniyyətinin paytaxtı" elan olunmuşdu.

**18 fevral 2016** – Prezident İlham Əliyev Bakı şəhərində Birinci Türkoloji Qurultayın (1926) keçirilməsinin 90 illik yubileyi haqqında sərəncam imzalayıb.

**18 fevral 2021** – Prezident İlham Əliyev Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

**19 fevral 1897** – Xalq artisti Antonina Mixaylovna Filippova (1897-1976) anadan olub. Dövlət Rus Dram Teatrında (1935-1950) aktrisa kimi fəaliyyət göstərib.

**19 fevral 1921** – Əməkdar artist, tarzən Məmmədağa Məmmədhəsən oğlu Muradov (1921–1969) Bakıda anadan olub. Azərbaycan Dövlət Filarmoniyası Xalq çalğı alətləri orkestrinin solisti, konsertmeysteri olub, musiqi məktəblərində dərs deyib.

**19 fevral 1948** – Əməkdar rəssam, pedaqoq Fikrət Məmməd oğlu Həşimov (1948 – 8.2.2022) Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda doğulub. Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kollecinin direktoru olub.

**19 fevral 1949** – Respublika hökuməti Üzeyir Hacıbəylinin Bakıda ev-muzeyinin yaradılması barədə qərar qəbul edib. Qərar Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə, 1975-ci ildə həyata keçdi.

**19 fevral 1949** – Ədəbiyyatşünas, filologiya elmləri doktoru, mədəniyyət xadimi Adilxan Hüseynəli oğlu Bayramov (1949 – 14.4.2021) Gürcüstanın Marneuli rayonunun Sadaxlı kəndində doğulub. S.Vurğunun yaradıcılığı, Tiflis Azərbaycan teatrının və Azərbaycanda muzey işinin tarixi ilə bağlı tədqiqatların müəllifidir.

**20 fevral 1900** – Xalq artisti, aktyor, rejissor Səməd Məmməd oğlu Mövləvi (1900 – 3.2.1962) anadan olub. Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışıb.

**20 fevral 1915** – Əməkdar artist Rüxsarə Əli qızı Ağayeva (1915 – 26.11.1994) Bakıda anadan olub. Naxçıvan, Qazax teatrlarında, Gənc Tamaşaçılar Teatrında çalışıb, filmlərdə çəkilib.

**20 fevral 1925** – Əməkdar artist, vokalçı Kamal Həmid oğlu Kərimov (1925 – 13.1.1992) Bakıda doğulub. Musiqili Komediya, Opera və Balet teatrlarında çalışıb.

**20 fevral 1928** – Tanınmış şair, dramaturq Əliağa Kürçaylı (Əliağa Həsənağa oğlu Vəliyev; 1928 – 11.2.1980) Salyan rayonunun Kürqaraqaşlı kəndində doğulub. Kitabları: "Yollarda axtar məni", "Həyatın dolayları", "Dünya ovcumdadır" və s. Rus poeziyasından tərcümələr edib.

**20 fevral 1935** – Şərqşünas, professor Şulan İsmayıl oğlu Şirəliyev (1935-2013) anadan olub.

**20 fevral 1938** – Dilçi alim, türkoloq Cəfər İsmayıl oğlu Cəfərov (1938-1996) anadan olub.

**20 fevral 1957** – Ustad tarzən, Əməkdar artist Məmmədxan Məmmədrza oğlu Bakıxanov (1890-1957) vəfat edib. Uzun müddət Cabbar Qaryağdıoğlu və Seyid Şuşinski kimi məşhur xanəndələri müşayiət edib.

**20 fevral 1960** – Əməkdar artist Adil Ağakərim oğlu Zeynalov (1960 – 12.3.2020) anadan olub. Lənkəran Dövlət Dram Teatrında aktyor və rejissor işləyib.

**20 fevral 1980** – Bakıda Azərbaycanın böyük mütəfəkkir şairi İmadəddin Nəsiminin abidəsinin (heykəltəraşlar – Tokay Məmmədov və İbrahim Zeynalov) açılışı keçirilib. Mərasimdə respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev iştirak edib.

**20 fevral 1984** – Böyük bəstəkar, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı Fikrət Məşədi Cəmil oğlu Əmirov (22.11.1922 – 1984) vəfat edib. Simfonik muğamlar, "Nizami" simfoniyası, "Azərbaycan kapriççiosu", "Sevil" operası və s. əsərlərin müəllifidir. Bəstəkarın "Min bir gecə" baleti dünya musiqi xəzinəsinə daxildir .

**20 fevral 2014** – Xalq artisti, tanınmış teatr və kino aktrisası Firəngiz Abbas Mirzə qızı Şərifova (6.2.1924 – 2014) vəfat edib. Uzun illər Gənc Tamaşaçılar Teatrında çalışıb. "Qərib cinlər diyarında", "Ən vacib müsahibə", "Bayquş gələndə", "Qətl günü" və s. filmlərdə çəkilib.

**20 fevral 2015** – Prezident İlham Əliyev "Kitabi-Dədə Qorqud"un alman şərqşünas alimi Fridrix fon Dits tərəfindən alman dilinə tərcüməsi, nəşri və dünya elm aləminə tanıdılmasının 200 illiyi haqqında sərəncam imzalayıb.

**20 fevral 2021** – Əməkdar rəssam Qüdrət Hacıbəy oğlu Məmmədov (12.12.1936 – 2021) vəfat edib. Şəki Dövlət Dram Teatrının baş rəssamı işləyib.

### Dünya

**18 fevral 1838** – Avstriya filosofu, pozitivizmin tanınmış nümayəndəsi Ernst Max (Ernst Mach; 1838-1916) anadan olub.

**18 fevral 1932** – Çex əsilli Amerika kinorejissoru Miloş Forman (Milosh Forman – Jan Tomash Forman; 1932 – 13.4.2018) anadan olub. "Qu quşunun yuvası üzərində uçuş" filmi (1975) 5 nominasiyada, "Amadey" filmi (1984) 8 nominasiyada "Oskar" mükafatına layiq görülüb.

**18 fevral 1934** – Rusiyanın Xalq artisti, sirk ustası Muxtarbek Kantemirov (1934-2017) anadan olub. "Azərbaycanfilm"də "Qorxma, mən səninləyəm!" filmində çəkilib.

**19 fevral 1473** – Polyak astronomu, riyaziyyatçı, mütəfəkkir Nikolay Kopernik (1473 – 24.5.1543) anadan olub. Dünyanın heliosentrik sistemi (planetlərin Günəş ətrafında fırlanması) nəzəriyyəsinin banisi sayılır.

**19 fevral 1743** – İtalyan bəstəkarı Luici Bokkerini (Luigi Boccherini; 1743-1805) anadan olub.

**19 fevral 1821** – Alman dilçi alimi, linqvistikanın tanınmış simalarından biri Avqust Şleyxer (August Schleicher; 1821-1868) anadan olub.

**20 fevral 1925** – Amerika rejissoru, ssenarist Robert Altman (1925-2006) anadan olub. Avropanın üç əsas festivalının (Kann, Venesiya, Berlin) qalibi olan yeganə amerikalı rejissordur.

**20 fevral 1967** – Amerika rok-musiqisi, "Nirvana" qrupunun rəhbəri Kurt Kobeyn (Kurt Donald Cobain; 1967-1994) anadan olub.

**Hazırladı: V.Orxan**

№13 (1982)
17 fevral 2023
www.medeniyyet.az

# Parisdə azərbaycanlı rəssamın əsəri maraqla qarşılanıb

Fransa paytaxtındakı “Grand Palais Ephmere” sərgi salonunda “Art en Capital – 2023” sərgisi açılıb. Ənənəvi sərgidə Azərbaycan rəssamı Nigar Nərimanbəyovanın da əsərləri nümayiş olunur.

Azərbaycanın Xalq rəssamı Vidadi Nərimanbəyovun qızı və sənətinin davamçısı Nigar Nərimanbəyova mütəmadi olaraq əl işlərini Fransada sərgi salonlarında təqdim edir.

Tanınmış rəssamların əsərlərinin nümayiş olunduğu “Art en Capital – 2023”də Nigar Nərimanbəyovanın “Votsap” tablosu da maraqla qarşılanıb.

N.Nərimanbəyova Azərbaycanı belə mötəbər sərgidə təmsil etməkdən qürur duyduğunu bildirib.





Salonda nümayiş olunan əsərlər münsiflər heyəti tərəfindən seçilib. “Art en Capital – 2023” sərgisi fevralın 19-dək davam edəcək.

# Bakıda Ukrayna şənbə məktəbi

Bakıdakı Ukrayna mərkəzində “Mriya” (Ukrayna dilində “arzu”) şənbə məktəbi fəaliyyət göstərməyə başlayıb.




Şənbə məktəbində uşaqlara Ukrayna dili, ədəbiyyatı, tarix və mədəniyyəti tədris olunacaq. Məktəbə 5-9 yaşlı uşaqlar qəbul olunur.

Xatırladaq ki, 2021-ci ildən Bakıda fəaliyyət göstərən Ukrayna mərkəzi Ukrayna və Azərbaycanın ali məktəblərinin birgə layihələrini həyata keçirir, tələbə mübadiləsi aparır. Mərkəz tərəfindən art-layihələr və tematik görüşlər təşkil olunur.

# Qərb muzeylərində məşhur “rus rəssamları”nın kimliyi dəqiqləşdirilir

Nyu-Yorkdakı Metropoliten Muzeyi (The Metropolitan Museum of Art) indiyədək ekspozisiyasında rus rəssamları kimi qeyd olunan İlya Repin (1844-1930) və İvan Ayvazovski (1817-1900) haqqında təqdimat məlumatlarını dəyişdirib. İndi muzeyin saytında onlar ukraynalı rəssamlar kimi göstərilib.

Repinin muzeydə yer alan “Vsevoloq Qarşinin portreti” əsərinə arayışda rəssamın ukraynalı olduğu və “bir vaxtlar Rusiya imperiyasının hissəsi olmuş Çuquyev şəhərində doğulduğu” qeyd edilib. Ayvazovskinin “Ay işığında gəmi” əsəri ilə bağlı arayışda isə” ukraynalı müəllifin Krımın Qara dəniz sahilindəki liman şəhəri Feodosiyada erməni ailəsində doğulduğu qeyd edilib.

Bundan öncə Metropoliten Muzeyi yunan əsilli məşhur rusiyalı rəssam Arxip İvanoviç Kuindcini (1841-1910) Ukrayna rəssamı kimi tanımışdı. Kuindci Donetsk vilayətinin Mariupol şəhərində anadan olub.





Rusiya Rəssamlar İttifaqının sədri Andrey Kovalçuq Nyu-York muzeyinin bu addımlarını incəsənətə qarşı təxribat adlandırıb.

Qeyd edək ki, bir qədər əvvəl Metropoliten Muzeyi ukraynalı fəalların tələbi ilə fransız rəssamı Edqar Deqanın (1834-1917) “Rus rəqqasələr” əsərinin adını “Ukrayna geyimində rəqqasələr” olaraq dəyişdirib. Əsərlə bağlı arayışda bildirilir ki, tabloda təsvir olunan rəqqasələrin əynində ənənəvi Ukrayna xalq geyimi var.

Edqar Deqanın sözügedən tablosunun bir variantı da London Milli Qalereyasında (The National Gallery) saxlanılır. Bu muzey də əsəri artıq “Ukraynalı rəqqasələr” adı ilə təqdim edir.

**V.Kamal**

# Türkiyənin müxtəlif ölkələrə etdiyi yardımın qarşılığını vermək lazımdır

## Zəlzələ yeddi milyon uşağın həyatına təsir göstərib

Türkiyədə 6 fevral zəlzələsində dağılan 6500-dək bina arasında 100-ə yaxın məktəb binası da var. Türkiyənin milli təhsil naziri Mahmut Özerin bildirdiyinə görə, ümumilikdə zəlzələ bölgəsində 20 mindən çox məktəb binası var. Binaların təhlükəsizliyinin qiymətləndirilməsi gələn həftə tamamlanacaq.

BMT-nin Uşaq Fondu – UNICEF-in məlumatına görə, zəlzələ Türkiyədə və qonşu Suriyada ümumilikdə 7 milyondan çox uşağın həyatına təsir göstərib. Qeyd olunur ki, Türkiyədə zəlzələnin dağıntı və tələfat törətdiyi 10 vilayətində ümumilikdə 4,6 milyon uşaq, Suriyada isə zəlzələ bölgəsində 2,5 milyon uşaq yaşayır.

Bu arada Dünya Səhiyyə Təşkilatının (DST) Avropa bürosu Türkiyə-Suriya həmsərhəd regionunda baş vermiş dəhşətli



zəlzələni son 100 ilin Avropada ən dəhşətli təbii fəlakəti kimi dəyərləndirib və beynəlxalq ictimaiyyəti zəlzələdən əziyyət çəkənlərə daha geniş yardıma çağırıb.

DST-nin Avropa bürosu Türkiyə də daxil olmaqla Avropa və Mərkəzi Asiya üzrə 53 ölkəni əhatə edir.

Avropa bürosunun rəhbəri Hans Kluqe bildirib ki, regionda yardıma tələbat olduqca böyükdür. Hazırda zəlzələnin əhatə etdiyi yerlərdə ümumilikdə 26 milyon insanın humanitar dəstəyə ehtiyacı var: “İndi vaxt yetişib ki, beynəlxalq ictimaiyyət Türkiyənin illər ərzində dünyanın müxtəlif ölkələrinə göstərdiyi səxavət və dəstəyin qarşılığını versin. O vurğulayıb ki, Türkiyə dünyanın ən çox qaçqına ev sahibliyi edən ölkəsidir”.




Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 145 il əvvəl...

**19 fevral 1878-ci ildə** Rusiya ilə Türkiyə (Osmanlı) arasında növbəti müharibə başa çatıb və tərəflər arasında ilkin sülh sənədi – San-Stefano müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, Osmanlı dövləti Balkanlar üzərində faktiki nəzarəti itirib.

### 75 il əvvəl...



**20 fevral 1948-ci ildə** II Dünya müharibəsindən sonra Stalin tərəfindən sosialist düşərgəsinə daxil edilmiş Çexoslovakiyada ilk antikommunist çıxışları başlayıb. Hərəkatın qarşısı Moskvanın yerli kommunistlərə hərbi dəstəyi ilə alındı. 20 il sonra (1968) Çexoslovakiyada SSRİ-nin boyunduruğundan çıxmaq uğrunda yeni çıxışlar oldu və yenə sovet tankları Praqaya girdi.

### 71 il əvvəl...

**18 fevral 1952-ci ildə** Türkiyə ilə Yunanıstan NATO üzvlüyünə qəbul olunub. Kipr və Egey dənizi məsələlərində aralarında mübahisə olan iki dövlətin eyni vaxtda alyansa qəbulu NATO-nun prinsipial mövqeyi idi.

### 69 il əvvəl...

**19 fevral 1954-cü ildə** SSRİ rəhbəri Nikita Xruşşovun təşəbbüsü ilə Krım vilayəti Rusiyanın tərkibindən çıxarılaraq Ukrayna SSR-ə verilib. 27 min kvadrat kilometr ərazisi olan Krım vilayəti 1945-ci ildə təşkil olunmuşdu. Xruşşov Ukraynanın Rusiyaya birləşdirilməsinin (1654) 300 illiyi münasibətilə bu jesti etmişdi.

### 58 il əvvəl...

**18 fevral 1965-ci ildə** Böyük Britaniyanın Afrikadakı müstəmləkəsi olan Qambiya dövlət müstəqilliyini elan edib.

### 35 il əvvəl...

**20 fevral 1988-ci ildə** Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) Xalq Deputatları Sovetinin erməni deputatları qeyri-legitim (XDS-nin səlahiyyət mandatı 1988-ci ilin yanvarında bitmişdi) sessiya çağıraraq “Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana verilməsi haqqında” qərar qəbul ediblər. Bu hadisə ilə Qarabağ münaqişəsi başlanmış oldu.

### 31 il əvvəl...

**20 fevral 1992-ci ildə** Azərbaycanla Almaniya arasında diplomatik münasibətlər qurulub. Almaniya ölkəmizin müstəqilliyini 1992-ci il yanvarın 12-də tanıyıb.

### 14 il əvvəl...



**18 fevral 2009-cu ildə** Bakıda “İslam mədəniyyətinin paytaxtı – 2009” ilinin açılış mərasimi keçirilib. Bakı şəhəri İslam ölkələri elm, təhsil və mədəniyyət təşkilatı – İCESCO-nun 2007-ci ildə qəbul etdiyi qərarla “İslam mədəniyyətinin paytaxtı” elan olunmuşdu.

**Hazırladı: V.Orxan**

# “Veronika ölməyə qərar verir”

## Minsk teatrı Paulo Koelyonun əsəri ilə Bakı səhnəsinə çıxacaq

Fevralın 19-da Heydər Əliyev Sarayında Belarus sənətçilərinin təqdimatında məşhur braziliyalı yazıçı Paulo Koelyonun eyniadlı bestselleri əsasında hazırlanmış “Veronika ölməyə qərar verir” tamaşası nümayiş olunacaq.

Tamaşanı Minsk şəhərində fəaliyyət göstərən “Nataliya Başevanın teatr emalatxanası” – Kamera Dram Teatrı təqdim edəcək.

“Veronika ölməyə qərar verir” tamaşası hər günü bir möcüzə kimi görməyə çağıran, ölüm qarşısında yaşamaq ehtirasından bəhs edən real bir hekayədir. İnsanlar nə qədər xoşbəxt ola bilirlərsə, bir o qədər də bədbəxt olurlar. Tamaşa nədən bəhs edir? Həyat, ölüm və sevgidən...

Qeyd edək ki, səhnə əsərinin bədii rəhbəri Nataliya Başeva, musiqi müəllifi Boris Qrebenşikovdur.

Nataliya Başeva 1996-cı ildə Belarus İncəsənət Akademiyasını bitirib. 2003-2010-cu illərdə Belarus Gənc Tamaşaçılar Teatrının baş rejissoru olub. Daha sonra özünün teatr emalatxanasının əsasında Kamera Dram Teatrını yaradıb.

# Təl-Əvivdə Azərbaycandakı yəhudi irsinə dair təqdimat

İsrailin Təl-Əviv şəhərində Dünya Yəhudilərinin Səyahəti (World Jewish Travel) təşkilatının təşəbbüsü ilə “Yəhudi İpək Yolu” adlı tədbir keçirilib. Bu barədə Dövlət Turizm Agentliyindən məlumat verilib.




Tədbirdə Azərbaycan Turizm Bürosunun sektor müdiri Günel Bədəlova tərəfindən ölkəmizdə zəngin tarixə malik yəhudi irsi, yəhudi icmasının sıx şəkildə məskunlaşdığı Qırmızı qəsəbə, o cümlədən yəhudi irsinin mövcud olduğu Bakı, Quba, Oğuz, İsmayıllı və digər yerlər haqqında təqdimat edilib. Azərbaycanın müxtəlif yerlərində qədim sinaqoqların izlərinin aşkarlandığı və hazırda ölkədə yeddi sinaqoqun fəaliyyət göstərdiyi diqqətə çatdırılıb.

Tədbirdə Türkiyə, Gürcüstan, Özbəkistan və Hindistan təmsilçiləri də ölkələrindəki yəhudi irsinə dair təqdimatla çıxış ediblər.

Qeyd edək ki, İpək Yolu üzərində yerləşən və yəhudi mədəniyyətinin çiçəklənməsinə töhfə verən şəhərləri birləşdirən konseptual layihə “Yəhudi İpək Yolu” adlanır.

Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə fevral 14-15-də Təl-Əviv şəhərində keçirilən Beynəlxalq Aralıq dənizi Turizm Bazarı (IMTM) sərgisində ölkəmizin turizm imkanları təqdim olunub.

# Dubay ötən il 14 milyondan çox turist qəbul edib

## Amma pandemiyadan öncəki səviyyəyə çatmayıb

Dünya turizmi hələ pandemiyadan öncəki statistik göstəricilərə çata bilməyib. Birləşmiş Millətlər Təşkilatı Dünya Turizm Təşkilatının (UNWTO) məlumatlarına görə, 2022-ci ildə qlobal turizm səyahətləri 2019-cu ilin göstəricilərinin 63 faizi qədər olub.

Bununla belə, keçən ən çox nisbi artım Yaxın Şərqdə olub. Bu regiona gələnlərin sayı pandemiyadan əvvəlki göstəricinin 83 faizinə qalxıb. Dubay isə turizmin həm qlobal, həm də regional bərpa dərəcələrini üstələyib, 2022-ci ildə şəhərə gələn ziyarətçilərin sayı pandemiyadan əvvəlki səviyyənin 86 faizinə çatıb.

Rəsmi rəqəmlərə görə, Dubay 2021-ci ildəki 7,28 milyon turistlə müqayisədə 2022-ci ildə 97 faiz artımla 14,36 milyon qonaq qəbul edib. Dubayın İqtisadiyyat və Turizm Departamentindən bildirilib ki, səfərlərin əsas hissəsi Qərbi Avropa və Fars körfəzi ölkələrinin payına (hər biri 21 faiz) düşür. Daha sonra Cənubi Asiyadan (17 faiz), Yaxın Şərq və Şimali Afrikadan (12 faiz) gələn turistlər üstünlük təşkil edib.

Pandemiyadan əvvəlki 2019-cu ildə 16,73 milyon ziyarətçi qəbul etmiş Dubay turizm göstəricisinə görə “Tripadvisor Travellers’ Choice Awards”ın iki il ardıcıl olaraq dünyanın bir nömrəli istiqaməti statusunu alıb.

“Mədəniyyət” qəzetinin kollektivi Mədəniyyət Nazirliyinin Media və kommunikasiya şöbəsinin əməkdaşı Elnarə Kərimovaya xalası

**Qocayeva Lida Süleyman qızının**

Türkiyədə baş verən zəlzələ nəticəsində həlak olması ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**

**MƏDƏNİYYƏT**

**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan“ nəşriyyatında çap olunub.
**Tiraj:** 5050. **Sifariş:** 463
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641